İN

SƏRHƏDSİZ SƏS...

Tərtib edən:
**G Ü L N A Z   A B D U L L A Z A D Ə**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor.

Elmi redaktor:
**K Ö N Ü L   N Ə S İ R O V A**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor.

Texniki redaktor:
Günel Bəkirli

"İlham Nəzərov: sərhədsiz səs..." adlı kitab XXI əsr müasir Azərbaycan vokal ifaçılıq məktəbinin parlaq nümayəndəsi, Azərbaycan Respublikasının Əməkdar artisti, respublikamızın ilk kontratenor səsinə malik opera ifaçısı İlham İslam oğlu Nəzərovun həyat və yaradıcılığına həsr edilmişdir. Burada sənətçinin yaradıcılığının istiqamətləri – vokal ifaçılıq üslubunun xüsusiyyətləri, səhnə fəaliyyəti, beynəlxalq aləmdə qazandığı uğurlar, pedaqoji və elmi fəaliyyəti işıqlandırılmışdır.

İlham Nəzərov: sərhədsiz səs... Bakı, "Savad", 2020, 128 s.
**ISBN** 978-9952-37-441-4

©ilhamnazarov,2020

# MÜNDƏRİCAT

4 Gülnaz Abdullazadə
Romantizmi yaşadan kontratenor

8 Könül Nəsirova
Səhnəmizin İlhamı

12 İlham Nəzərov
Gələcəyə ümidlə...

14 Azərbaycan vokal ifaçılıq sənətində
İlham Nəzərovun rolu

82 İham Nəzərovun pedaqoji fəaliyyəti

86 İlham Nəzərovun səsinin bəzi
xüsusiyyətləri

90 Dünya şöhrətli musiqiçilərin
İlham Nəzərov haqqında fikirləri

108 İlham Nəzərovun repertuarı

120 İlham Nəzərovun iştirak etdiyi konfrans
və müəllifi olduğu məqalələr

124 Ədəbiyyat siyahısı

# Romantizmi yaşadan kontratenor...

Azərbaycan Respublikasının Əməkdar artisti İlham Nəzərov vokal ifaçılıq sənətimizdə kontratenor səs tembrinə malik ilk opera müğənnisidir. Onun fəaliyyəti müasir musiqi mədəniyyətimizin əhəmiyyətli bir hissəsini təşkil edir. Belə ki, nadir səs tembrinə malik müğənninin yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində yeni bir istiqamətə yol açmışdır. İ.Nəzərov sənətinin cəlbedici tərəflərindən biri də yaradıcılığında kontratenor ilə bərabər, bariton ifaçılıq üslubuna da yer verməsidir. Müğənninin hər iki səs tembrində fəaliyyətini bədii tərzdə həznli bariton və lirik kontratenor ifadələri ilə xarakterizə etmək mümkündür. İ.Nəzərov səsinin imkanlarından böyük ustalıq və məharətlə istifadə edir. Dünya musiqi mədəniyyətində də belə istedada malik olan vokal ifaçılarına böyük önəm verilir. İ.Nəzərov kimi geniş amplualı müğənninin yaradıcılığı Azərbaycan musiqi mədəniyyəti üçün əlamətdar hadisədir və onun fəaliyyəti vokal ifaçılıq sənətimizin üfüqlərini genişləndirir.

Mənim İ.Nəzərovun sənət yolu ilə tanışlığım illər öncəyə təsadüf edir. Belə ki, müğənninin 2010-cu ildə Xalq artisti F.Əlizadənin "İntizar" operasında Yad adam obrazını mükəmməl artistizm və vokal ifaçılıq imkanları ilə səsləndirməsi onun yüksək ifaçılıq potensialından xəbər verirdi. Həmçinin İ.Nəzərovun 2018-ci ildən mənim rəhbərliyim altında elmi fəaliyyətə başlaması ilə onun musiqi elminə də böyük həssaslıqla yanaşmasının şahidi oldum.

"İlham Nəzərov: sərhədsiz səs..." kitabının ərsəyə gəlməsinin kiçik tarixçəsi vardır. Belə ki, müğənninin 27 mart 2019-cu il tarixində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi zalında "Qu quşunun nəğməsi" vokal silsiləsini böyük məharətlə ifa etməsi məndə dolğun təəssürat formalaşdıraraq bu kitabın yaranması ilə nəticələndi.

Kontratenor kişi səs tembrləri arasında ən yüksək tessituraya malik ifaçılıq növüdür. Kontratenor tembrinin şəffaf, parlaq və aydın olması bu səsin valehedici xüsusiyyətlərindəndir. İ.Nəzərov F.Şubertin "Qu quşunun nəğməsi" silsiləsində ifa bacarıqlarını böyük ustalıqla nümayiş etdirmişdir. Burada təbiət, bəşəriyyət, tərki-dünya və məhəbbət mövzuları silsilənin mahiyyətini təşkil edir. Böyük fəlsəfi məzmuna malik olan

silsiləni İ.Nəzərov səsinin bütün gözəlliyi ilə əhatəli şəkildə çatdıra bilmişdir.

Silsilənin “Qu quşunun nəğməsi” adlandırılması təsadüfi xarakter daşımır. Rəvayətə görə Qu quşu yalnız ölümündən öncə son nəğməsini oxuyur. Bəstəkar da silsilədə verilən mahnıları ölümündən bir neçə ay əvvəl bəstələmişdir. Burada məcmuənin “Qu quşunun nəğməsi” adlandırılması rəvayətlə əlaqələndirilərək simvolik mənada verilmişdir. Məcmuədə yer alan 14 nəğmə sətiraltı mənaya malikdir. Bu sətiraltı mənanı açmaq üçün vokalçıdan böyük ustalıq tələb olunur.

Kontratenor səs tembri ilə silsilənin səsləndirilməsi ilk baxışda çox şəffaf və sadə təsir bağışlasa da, müğənni qarşısında mürəkkəb ifa çətinlikləri qoyur. Əgər Barokko dövrünün əsərləri kontratenor ifaçıları üçün “doğma” repertuar sayılırsa, həmin ifaçıların Qərbi-Avropa bəstəkarlarının yaradıcılığına, o cümlədən F.Şubert mahnılarına müraciəti böyük məharət və çeviklik kimi ifa xüsusiyyətlərinin olmasını zəruri edir. Dərin kədər və hissiyat məcmuədə səslənən bütün nəğmələrin məzmununu təşkil edir. Vokalçı bu hisslərin ardı ilə gedərək dinləyicilərdə də eyni təəssüratı yaratmalıdır. Qeyd edək ki, silsilədə verilən mahnıların hər biri müstəqil məna daşısa da ümumi məzmuna bağlıdırlar.

İ.Nəzərov geniş səs diapazonunun sahibidir. Burada yuxarı, orta və aşağı tessiturada ifa olunan nəğmələr onun ifasında böyük ustalıqla səslənir. Misal üçün “Bahar arzuları” yuxarı, “Sığınacaq” əsasən aşağı, “Onun portreti” orta, “Döyüşçünün hissiyatı” isə diapazonun müxtəlif hissələrini əhatə edir.

F.Şubertin mahnılarına Azərbaycan vokal ifaçılıq sənətinin bir çox nümayəndələri müraciət etmişdirlər. Belə ki, SSRİ və Azərbaycan Respublikasının Xalq artistləri Fidan və Xuraman Qasımova bacıları da alman romantizminin bənzərsiz musiqi nümunələrinə yaradıcılıqlarında geniş yer vermişdirlər. Belə ki, 2006-cı ilin martında Bakı Musiqi Akademiyasının Böyük zalında keçirilən konsertdə SSRİ Xalq artisti Fərhad Bədəlbəylinin müşayiəti ilə görkəmli bəstəkarın bir çox mahnılarının səsləndirilməsini qeyd edə bilərik. Burada Fidan və Xuraman Qasımovaların dolğun və parlaq səslə ifaları mahnıların rəngarəng çalarlar ilə zənginləşməsinə səbəb olmuşdur. İ.Nəzərovun F.Şubert mahnılarına müraciətini bu ənənənin davamı kimi də qiymətləndirmək olar.

İ.Nəzərovun Qərbi-Avropa bəstəkarlarının kamera-vokal musiqisinə geniş şəkildə yer verməsinə baxmayaraq, onun yaradıcılığının əsas xəttini opera fəaliyyəti təşkil edir. İfaçının obrazlar albomu ildən-ilə genişlənir və yeni-yeni rollarla zənginləşir. Qırx doqquz müxtəlif səpgili

obraz, onlarla tamaşa və konsertlər ona bariz nümunədir. Hər bir bəstəkarın mətninə böyük həssaslıqla yanaşan ifaçı, oxuduğu sənət nümunələrində müxtəlif məna çalarları tapır və onlara yeni həyat bəxş etməyə nail olur.

Sənətçinin sahib olduğu unikal cəhətlər rəngarəng və özünəməxsus yaradıcılığı formalaşdırır. Kitabda musiqiçinin sənət yolundan bəzi məqamlar işıqlandırılmış, ifaçının səsinin xüsusiyyətləri, pedaqoji fəaliyyəti, eyni zamanda dünya şöhrətli musiqiçilərin İ.Nəzərov sənəti haqqında düşüncələri oxucuların diqqətinə çatdırılmışdır.

Gülnaz Abdullazadə
*Ü.Hacıbəyli adına BMA-nın*
*Elmi işlər üzrə prorektoru,*
*fəlsəfə elmləri doktoru,*
*Əməkdar incəsənət xadimi, professor*

# Səhnəmizin İlhamı...

Azərbaycan vokal mədəniyyətini zənginləşdirən mahir vokal ustalarını xatırlayanda, insana elə gəlir ki, artıq burada bir yenilik etmək mümkün deyil. Lakin İlham Nəzərovun sənəti bu fikri dəf edir, xalqımızın neçə böyük istedadlara sahib olduğunu göstərir.

İ.Nəzərovu ilk dəfə səhnədə "Notre Dame de Paris" müziklində Kvazimodo rolunda gördüm və o, parlaq, cəlbedici gücə malik artist kimi yaddaşımda həkk olundu. Yaradıcılığını diqqətlə izlədiyim bariton səsli gənc ifaçı tezliklə nadir kontratenor tembrli sənətçiyə çevrildi və fərdi ifaçılıq üslubu ilə çıxış etdiyi müxtəlif ölkələrdə tamaşaçıların rəğbətini qazandı.

İ.Nəzərov hər bir artistə nəsib olmayan səs imkanları, səhnə qabiliyyəti, musiqiyə olan vurğunluğu ilə başqalarından fərqlənir. Bunun sirri – vokal sənətinin qanunlarını dərindən mənimsəməsi, erkən yaşlarından respublikada və xaricdə keçirilən bir çox müsabiqələr, musiqi festivallarında laureat adına və diplomlara layiq görülməsidir. Əsası isə, böyük istedada və yüksək bədii zövqə malik olması, özünə qarşı tələbkarlıq və daima yeni ifadə vasitələrini axtarmaq qabiliyyətidir.

Çoxluğun diqqət və nəzərini cəlb edən İ.Nəzərovun səsi öz orijinallığı, ləngəri ilə seçilir, eşidəni heyrətə gətirir. Bunun isə ən xoş məqamı insanların həyatını mənalandıran, zirvələrə ucaldan bədii kəşflərin olmasıdır. Bu gün hər bir ölkədə minlərlə oxuyanlar var, lakin İ.Nəzərov kimi ifası ilə qəlbə təsir edən, unudulmayan, ilhama gətirən azdır. Dünya musiqi şedevrlərindən tutmuş müasir dövrümüzədək bəstələnən əsərləri oxuyanda, onun gözəl səsi, mükəmməl vokal texnikası və ürəyinin döyüntüsü duyulur.

"Belcanto" sənətinin beşiyi olan İtaliya səhnələrində, Azərbaycanda və başqa ölkələrdə uğurla çıxış edən İ.Nəzərov bu gün opera və kamera ifaçısı, pedaqoq, mahnılar müəllifi, tədqiqatçı kimi tanınmaqdadır. Vokal ifaçısı dövr və zaman baxımından müxtəlif kompozisiyaların dərin qatlarını axtarıb-tapır və orijinal formada dinləyicilərə çatdırır. "Sənət aləmində "başqalaşmaq" məktəbi var" və İ.Nəzərov çıxış etdiyi opera rollarında yaşayır, inanır və inandırır. Musiqi intonasiyasının dəqiqliyi, sözün aydın tələffüzü və hər ikisinin vəhdəti onun sənətinin başlıca mə-

ziyyətlərindən biridir. O, dəfələrlə eşitdiyimiz vokal miniatürlərinin yeni bir tərəfini aşkar edir və bu əsərlər bədii yetkinliyin nümunəsinə çevrilir.

Yaşamaq, yaratmaq həvəsi ilə döyünən ürəyi onun öz istedadını sınamaqdan ötrü müəllimlik fəaliyyətinə qoşulmağa sövq etdi. Bu gün İ.Nəzərov gənc nəslə sənətin sirlərini öyrədir, vokal ifaçıları, Azərbaycanda ilk dəfə olaraq kontratenorlar yetişdirir.

Zəngin, geniş fəaliyyəti ilə seçilən İ.Nəzərov yaradıcılığının çiçəklənmə dövrünü yaşayır. O, vokal sənətində çətin bir yolu seçib və ona təmənnasız, qəlbdən xidmət edir. Bu yol olduqca mürəkkəb olmasına baxmayaraq, ifaçı səsin hökmü və hakimliyi ilə Azərbaycan incəsənətində layiqli yer tutur.

Görkəmli ispan rəssamı Salvador Dali demişdir: "Əsl sənətkar ilham alan yox, ilham verən şəxsdir". Bu sözlər sanki adı ilə sənəti üst-üstə düşən İ.Nəzərov haqqında deyilmişdir. Onun həyat və yaradıcılıq yolunu işıqlandırmaq və bir çox suallara cavab vermək üçün "İlham Nəzərov: sərhədsiz səs..." adlı kitabın yaranması zərurəti ortaya çıxmışdır. Burada vokal ifaçısının portreti işlənib başa çatdırılmış və sənət adamlarının mühakiməsinə verilmişdir. Kitabda sənətkarın yaradıcılıq yolunun hamıya görünən və bəlli olmayan məqamları, musiqiçi və şəxsiyyət kimi formalaşdıran amillər araşdırılmışdır. Oxucu asanlıqla duyur ki, bütün məqamların arxasında böyük istedad, gərgin əmək və daimi axtarışlar durur. Əminəm ki, səhnəmizin İlhamına həsr olunmuş bu kitabla tanışlıq sənətçiyə olan məhəbbəti və marağı daha da artıracaq. Bu yolda ona böyük uğurlar arzulayıram!

Könül Nəsirova
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının*
*"Musiqi nəzəriyyəsi" kafedrasının müdiri,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*



# Gələcəyə ümidlə...

Vətənimi, ölkəmi yüksək səviyyədə təmsil etmək mənim hər zaman ən böyük amalım və məqsədim olmuşdur. Özümü səhnəsiz, tamaşaçısız təsəvvür etmirəm. Vokal ifaçılığı mənim düşüncələrimin, hiss və duyğularımın ifadə vasitəsidir və həyatımda əvəzsiz rola malikdir. İyirmi illik professional səhnə fəaliyyətim (2000-2020) ərzində hər zaman dövlətimizin diqqət və qayğısını, sənətsevərlərin sevgisini hiss etmişəm. Məni ruhlandıran, daim öz üzərimdə çalışmağa və yeni-yeni çıxışlara həvəsləndirən də elə bu sevgi, yaradıcılığıma verilən qiymətdir.

Təqdim edilən bu kitabın ərsəyə gəlməsi elə də asan deyildi. Materialların toplanması, bir çox sənədlərin, konsert və opera tamaşalarımdan olan afişaların şəxsi arxivimdə olmaması səbəbindən yaranan çətinliklərlə bağlı kitabda yaradıcılığımın yalnız kiçik tarixçəsi yer almışdır.

"İlham Nəzərov: sərhədsiz səs..." adlı kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Ümid edirəm ki, böyük elm xadimi, professor Gülnaz Abdullazadə tərəfindən tərtib olunan bu kitab oxucuların, o cümlədən, sənətsevərlərin rəğbətinə və marağına səbəb olacaqdır.

***İlham Nəzərov***
*Azərbaycan Respublikasının Əməkdar artisti,*
*Prezident təqaüdçüsü,*
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının*
*"Solo oxuma və opera hazırlığı" kafedrasının baş müəllimi*

# Azərbaycan vokal ifaçılıq sənətində İlham Nəzərovun rolu

“Səs insanın ikinci simasıdır” – görkəmli fransız ədibi Jerar Boenin bu məşhur fikri İlham Nəzərov yaradıcılığında fərqli şəkildə assosiasiya olunur, çünki səs onun həyatında birinci yeri tutur. İfaçının çoxillik səhnə fəaliyyətinə nəzər yetirdikdə sənətin, musiqinin açıq-aşkar üstünlüyü görünür. İ.Nəzərovun yaradıcılığı XXI əsr Azərbaycan vokal ifaçılıq sənətində yeni bir istiqamət təşkil etməklə bərabər, musiqi mədəniyyətimizdə əhəmiyyətli rola malikdir. Belə ki, musiqiçinin fəaliyyəti vokal ifaçılıq sənətimizi zənginləşdirmiş və onu fərqli müstəviyə yüksəltmişdir.

“Bu səs əsən mehi xatırladır...”, “Ecazkar səs və qeyri-adi ifa...”, “Onun oxuması mələklərin nəğməsinə bənzəyir...” – bu, İlham Nəzərov sənətkarlığının poetik dillə ifadəsidir... Yaradıcılıq bacarığı – insana verilmiş ən ali keyfiyyətdir. Özünügerçəkləşdirmə, şəxsiyyətin imkanlarının tam bərqərar olması insan həyatının mənası və mahiyyətidir. Şəxsiyyəti dərk etmək isə ona verilən ən böyük qiymətdir.

Sənətçinin yaradıcılığının ümumi mənzərəsi bizə onun sənət yolunun istiqamətlərini araşdırmaq imkanını verir. Bu zaman gözlərimizin önündə əsl sənət fədaisinin, musiqiyə ürəyi və bütün varlığı ilə bağlı olan insanın obrazı canlanır. O, qısa zaman ərzində peşəkar ifaçı kimi formalaşmış və böyük müvəffəqiyyətlər əldə etmişdir. İfaçının yaradıcılıq yoluna nəzər yetirəndə, onun iki fərqli surəti ilə rastlaşırıq: fəaliyyətinin ilkin mərhələsində ətrafdakıları səsi ilə valeh edən sadəlövh gənc və istedadı, əzmkarlığı, çalışqanlığı ilə dünyanın aparıcı opera səhnələrini fəth edən peşəkar vokal ustası...

Müğənninin malik olduğu səsin xarakterik xüsusiyyətlərini şərh etməyə çalışsaq, ilk növbədə onu qeyd etməliyik ki, bu, Allah vergisidir, Tanrının bəxş etdiyi istedaddır. İlham Nəzərov kontratenor və bariton səsi ilə oxuyan ilk opera müğənnisi kimi Azərbaycan musiqi sənəti tarixinə daxil olmuşdur. İfaçının sənətini əhəmiyyətli edən digər səbəb, onun hər iki səsdən eyni və ya fərqli əsər daxilində böyük ustalıqla istifadə etməsidir. Bu tək Azərbaycanda deyil, dünya musiqi mədəniyyəti tarixində nadir rast gəlinən haldır.

Musiqiçinin sahib olduğu vokal ifaçılıq imkanları onun janr və üslub baxımından fərqli əsərlərə müraciət etməsinə zəmin yaradır.

İ.Nəzərovun repertuarına XVI əsrdən XXI əsrə qədər nümunələr, (neapolitan mahnıları, rus bəstəkarlarının mahnı və romansları, Azərbaycan xalq mahnıları, bəstəkarlarımızın mahnı və romansları) daxildir. Musiqiçi həm soprano, metso-soprano, kontralto, bariton, həm də bas partiyasını ifa edir ki, bu da Azərbaycan vokal ifaçılığı sənətində bir ilkdir.

İ.Nəzərovun yalnız vokal ifaçılıq istedadını vurğulamaq, fəaliyyətini məhdudlaşdırılmaq deməkdir. O, peşəkar ifaçı olmaqla yanaşı, aktyor və vokal əsərlərinin müəllifidir. Həmçinin İ.Nəzərov on iki ilə yaxındır ki, pedaqoji fəaliyyətlə məşğul olur.

Vokal ifaçısının yaradıcılığının əsas keyfiyyətlərindən biri kontratenor repertuarını daha da genişləndirməsidir. Bu səsə malik ifaçılar əsasən XVII-XVIII əsrin bəstəkarlarının musiqisinə müraciət edirlər. Lakin İ.Nəzərov repertuarını daim zənginləşdirir. Belə ki, S.Raxmaninovun "Oxuma, gözəl" vokal əsərini, dünya musiqi tarixində ilk dəfə olaraq F.Şubertin "Qu quşunun nəğməsi" vokal silsiləsinin bütövlüklə kontratenor səsi ilə ifa etməsini, R.Şumanın "Şairin məhəbbəti" vokal məcmuəsinə müraciətini, E.Qriqin romanslarının ifasını və onlarla belə nümunələri sadalaya bilərik. İfaçının Azərbaycan xalq mahnılarını, görkəmli bəstəkarlarımızın mahnı və romanslarını böyük uğurla səsləndirməsini də xüsusi olaraq vurğulamalıyıq. Bu, həmin əsərlərə yeni müstəvidən baxış və incə, detallı vokal ifaçılıq üslubunun təzahürüdür.

İlham Nəzərov yaradıcılığının digər hissəsini onun konsert fəaliyyəti təşkil edir. O, təkcə respublikamızda deyil, dünyanın bir çox ölkələrində, o cümlədən, Avstriya, İtaliya, Rusiya, Çexiya, Fransa, İspaniya, Türkiyə, Yunanıstan, Macarıstan, Almaniya, Hollandiya, Norveç, İsveçrə, Böyük Britaniya, İsveç, Finlandiya, Qazaxıstan, Belarus, Ukrayna və bu kimi digər ölkələrin böyük konsert salonlarında çıxışlar edir. Vokal ifaçısı həmçinin beynəlxalq musiqi festivallarında, Azərbaycan musiqi mədəniyyətinin xaricdə təbliğ olunması ilə bağlı keçirilən dövlət tədbirlərində və digər konsertlərdə ölkəmizin layiqli təmsilçisidir.

Mədəniyyət sahəsində dövlət siyasətinin başlıca vəzifəsi musiqimizin dünyada yüksək səviyyədə təbliğ olunmasıdır. Bu baxımdan musiqi mədəniyyətimizi tanıdan və onun adını yüksəklərdə tutan ifaçıların əməyi, Vətənə bağlılığı dövlətimiz tərəfindən daim qiymətləndirilir.

Hər bir musiqiçi üçün onun sənətinə verilən dəyər böyük əhəmiyyət kəsb edir. Çünki bu, ifaçını yeni nailiyyətlərə ruhlandırır. Xüsusilə, dəyəri doğma Vətən verirsə, bundan daha ali heç nə ola bilməz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 mart 2017-ci il tarixdə imzaladığı Sərəncama əsasən, İlham Nəzərov Əməkdar artist

fəxri adına layiq görülmüşdür.

Sənətçi həmçinin 2018-2020-ci illərdə Azərbaycan Respublikasının Prezidentinin təqaüdü ilə də mükafatlandırılmışdır.


AZƏRBAYCAN RESPUBLİKASI
FƏXRİ ADININ VƏSİQƏSİ
№ I-226
Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 9 mart tarixli
2713 nömrəli Sərəncamı ilə

Nəzərov
İlham
İslam oğluna
"Əməkdar Artist"
fəxri adı verilmişdir.
İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti



***

Hər bir şəxsiyyətin formalaşmasında onun istedadı və individual keyfiyyətləri ilə yanaşı, ailə və cəmiyyətin, yəni mühitin də rolu çox böyükdür. Bütün bunlar kompleks şəkildə birləşərək, fərdin simasının özünütəsdiqi və ifadəsi prosesində əhəmiyyətli faktor kimi çıxış edir. Çünki şəxsiyyəti həm insanın psixoloji vəziyyəti, həm də əhatə olunduğu mühit və şərtlər müəyyən edir.

İlham İslam oğlu Nəzərov 5 oktyabr 1985-ci ildə Əli-Bayramlı şəhərində (indiki Şirvan) dünyaya göz açmışdır. İfaçının xatirələri bizi onun uşaqlığına, sənət aləminə qədəm qoyduğu zamandan Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil aldığı illərə aparır.

İlham Nəzərovda sənət sevgisi, musiqiyə maraq necə yaranmışdır?

Hər bir azərbaycanlı ailəsində olduğu kimi, onların da evində musiqi, xüsusilə milli musiqimiz dinlənilir və sevilirdi. Vokal ifaçısının ailəsində heç kim musiqi ilə professional şəkildə məşğul olmurdu. İxtisasca mühasib olan atası İslam Şirməmməd oğlu Nəzərov Azərbaycan şifahi musiqi irsinin mühüm hissəsini təşkil edən muğamı dinləyər, fürsət düşdükcə zümzümə etməklə yanaşı, qarmon alətində də ifa edərdi. Anası Xuraman Xanbaba qızı Nəzərova isə tibb işçisi olsa da, musiqiyə,

incəsənətə heyranlığını heç vaxt gizlətməmişdir. Sənəti sevən, qiymətləndirən, yüksək musiqi zövqü olan ailədə dünyaya gəlməsi və belə bir mühitdə böyüməsi İlham Nəzərovun formalaşmasına təsir göstərməyə bilməzdi.

Vokal ustası müsahibələrində daima qeyd edir ki, mahnı oxumaq, səhnədə hər hansı bir obrazı canlandırmaq arzusu kiçik yaşlarından qaynaqlanmışdır. Uşaq qəlbində böyük arzuların doğulması onu parlaq gələcəyə aparan yolun işıqlı başlanğıcı deyilmi? İlham Nəzərov ilk zümzüməsinin, ilk ifasının nə zamandan başladığını xatırlaya bilmir. Ona elə gəlir ki, varlığı, mayası elə sənət eşqi ilə yoğrulmuş və bu dünyaya musiqi sevgisi, oxumaq istəyi ilə bərabər doğulmuşdu... Bəlkə adına Alın yazısı, Tale dediyimiz elə budur?!...

Uşaq vaxtı qohumlarının evində gördüyü pianonu xəyalən gözünün önündə canlandırar, sanki böyük səhnələrdə çıxış edirmiş kimi barmaqlarını əşyaların üzərinə toxunduraraq gəzdirərdi... Bəzən də atasının qarmonunda tək əllə ifa etməyə cəhd göstərər, xalq mahnılarını oxuyardı...Sənətçi ilk "ifasını" məhz belə xatırlayır...

Erkən yaşlarından xalq musiqimizin təsiri altında olması, sevimli, doğma ahəngin sədaları ilə böyüməsi, formalaşması danılmaz faktdır. O, xalq mahnılarını həmyaşıdlarının, həm də böyük nəslin nümayəndələrinin – peşəkarların ifasında dinləyirdi. Bugünkü İlham Nəzərov fenomeni həmin o illərdə, mədəni mühitin təsiri altında yetişmişdir: *"Mən uşaqlıqda çox nadinc olmuşam, hər gün səhərdən axşamacan mahnı oxuyurdum. Hətta bir anlıq fasilə etməyimi istəsələr belə, sözə baxmır, oxumağa ara vermirdim"*.

O, əvvəlcə məktəbdənkənar dərnəyə yazılaraq, orada keçirilən bütün tədbirlərdə iştirak edir, xalq və bəstəkar mahnılarımızı oxuyurdu. Böyük həvəslə, səylə Azərbaycan və dünya opera sənətinin ulduzlarının ifalarına maraq göstərər, xəyalən özünü səhnədə təsəvvür edirdi. Elə korifey sənətkar Müslüm Maqomayev sənətinə, səsinə sevgisi də məhz uşaqlıq dövründən başlayır. Onda heç kimin, hətta özünün də xəyalına gəlməzdi ki, bütün günü heyranlıqla ustad sənətkarın misilsiz ifalarını dinləyən İlham Nəzərov illər sonra Müslüm Maqomayev adına Vokalçıların IV Beynəlxalq müsabiqəsinin qalibi olacaq!..

Uşaqlıqda ifaçılıq və aktyorluq istedadı bir dəcəllik kimi qəbul olunurdu. Oğlunun musiqiyə hədsiz marağını görən atası əvvəl etiraz etsə də, sonra onun yalnız xanəndə olması üçün doğma Şirvan şəhərində yerləşən musiqi məktəbində təhsil almasına icazə verir. İlham Nəzərov ilk dəfə xanəndəlik üzrə dərs almış və xalq musiqisinin kökü olan muğam ruhunda tərbiyələnmişdir.

İfaçının yaradıcılığının sonrakı mərhələlərinə diqqət yetirdikdə bu amilin nə qədər əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Daha sonralar bu xüsusiyyət onun peşəkar fəaliyyətinin əhəmiyyətli hissəsinə, ifaçılığının bir parçasına çevrilir.

O, uşaqlıqdan Şirvan şəhərində keçirilən bir çox tədbirlərdə iştirak etməyə başlayır. Elə bu illərdə də ifaçının teatrla ilk tanışlığı baş tutur. Musiqiçi teatra, bu sənət məbədinə arzularının arxasınca gəldiyini söyləyir: *"Teatrla ilk dəfə on iki yaşım olanda tanış olmuşam. C.Verdinin "Riqoletto" operasının tamaşası idi. Teatr, səhnə, işıqlar, aktyorlar, musiqi... – bir sözlə, bu aləmin məndə yaratdığı təəssürat o qədər güclü idi ki, ömrümü səhnəyə, teatra həsr etməyi qərara aldım. Bu sənət məbədinin ecazkar dünyası məni ovsunlayaraq özünə valeh etmişdi..."*.

Bu illərdə İ.Nəzərovun yetkinlik dövrü ilə əlaqədar səsində dəyişiklik baş verir. O, bir müddət oxumamaq məcburiyyətində qalır. Bu dövr onun əzmini qırmır, əksinə, sənətə olan məhəbbətini bir qədər də gücləndirir. Səsinin dəyişməsi ilə əlaqədar olaraq atasının musiqi ilə məşğul olmasına icazə verməməsi qorxusu səbəbindən düz iki il falsetlə danışır. Bu fakt onu kontratenor səsinə gətirən yolun başlanğıcı idi..

Niyyətin hara, mənzilin də ora, deyiblər. İnsanın uşaq vaxtında qəlbində yuva quran arzuları zaman ötdükcə daha da cilalanaraq həyatın gerçəkliyinə çevrilir. Vacib olan isə, könlündə kök salan diləkləri reallığa çevirməyi bacarmaqdır. Vokal sənətinin incəliklərinə yiyələnmək, böyük səhnələrdə çıxış etmək arzusu, İtaliyada təhsil almaq və teatr tamaşalarında müxtəlif obrazları canlandırmaq istəyi onun həyat eşqinin, yaşamaq amalının ayrılmaz parçasına çevrilir.  Müğənni arzularını gerçəkləşdirmək üçün əməyə qatlaşır, daim əzmlə çalışır. Bu səbəbdən İ.Nəzərov təhsilini davam etdirmək məqsədi ilə Bakıya gəlir.

Sanki taleyin özü gənc oğlana arzularını həyata keçirmək üçün fürsət yaradırdı. Belə ki, bir gün Əməkdar incəsənət xadimi, pedaqoji elmlər namizədi, professor Nazim Kazımov İlham Nəzərovu dinləyir. Onun fitri istedadını duyaraq, Bakıda təhsil almasını tövsiyə edir və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin direktoru, fəlsəfə elmləri namizədi Nigar Cərullazadənin yanına gətirir. Onlar gənc ifaçını Xalq artisti, muğam ustadı, görkəmli xanəndə Ağaxan Abdullayevin sinfinə yönləndirməyə qərar verirlər. Beləliklə, İ.Nəzərov təhsilini davam etdirmək üçün illərlə ata-anasından uzaqda qalmağa, gənc yaşlarından həyatın bütün çətinliklərinə sinə gəlməyə başlayır. Doğmaları da artıq anlayırdı ki, İlhamın ömür yolu həmişəlik musiqiyə bağlanıb...







Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsil aldığı illərdə onun dünyagörüşü daha da zənginləşir. Bu amil ifaçıda özünəinam hissinin möhkəmlənməsinə səbəb olur. Belə ki, İlham artıq bu illərdən etibarən müxtəlif konsertlərdə fəal iştirak etməyə başlayır, təsniflər, xalq mahnıları ilə yanaşı, T.Quliyev, S.Rüstəmov və digər bəstəkarların mahnılarını oxuyur. İfaçı həmçinin caz, klassik Avropa yönümlü müxtəlif vokal janrlara da meyl göstərir. Həmçinin məktəb illərində müxtəlif respublika festivallarına qatılaraq özünü sınayır. Əlbəttə, muğam ifaçısı üçün caz festivalında iştirak etmək cəsarətli addım kimi dəyərləndirilə bilər. Debütünün uğurlu olması gənc musiqiçini digər festivallara qatılmağa sövq edir və beləliklə, o, ilk uğurlarını qazanmağa başlayır. Belə ki, 2002 və 2003-cü illərdə "Xəzər Caz və Bluz festivalı"ında müxtəlif diplomlarla mükafatlandırılır. Onun yüksək səviyyədə çıxışı, caz musiqisinin incəliklərini dinləyicilərə çatdırmaq qabiliyyəti festival təşkilatçılarının da diqqət və marağına səbəb olur.

Bəzən qəbul etdiyimiz qərarlar taleyimizi müəyyən edir. İfaçının gələcək sənət yolunu müəyyənləşdirən vacib qərarlardan biri akademik vokal ifaçılıq üslubunu seçməsi oldu. Uğurlu çıxışları özünəinamı bir qədər də artırırdı. Bu səbəbdən o, artıq 11-ci sinifdən akademik vokalla məşğul olmaq üçün məktəb rəhbərliyindən Yevgeniya Məmmədovanın sinfinə keçirilməsini xahiş edir.

Musiqiçi 2003-cü ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasına qəbul imtahanında hazırladığı proqramı böyük müvəffəqiyyətlə oxuyaraq, "Solo oxuma" fakültəsinə, Maya Qocayevanın sinfinə qəbul olunur. Bu onun arzularına doğru atılan növbəti addım idi.

Yaşanan bir sıra problemlər üzündən İlham Nəzərov üçüncü kursdan dosent Sevda Məmmədovanın sinfinə keçir. Təhsil illərində kamera sinfi üzrə müəllimi Gülarə İmanova da ifaçının formalaşmasında böyük rol oynamışdır. Bakı Musiqi Akademiyasında üçüncü kursun sonundan tələbələr iki istiqamət üzrə yönləndirilir. Burada hər bir tələbə səsinin xüsusiyyətindən asılı olaraq, opera və ya konsert ifaçısı kimi təhsilini davam etdirməli idi. Sənət yolunun istiqamətini isə kafedra müdiri müəyyənləşdirirdi. Xalq artisti Xuraman Qasımova 13 tələbə arasından yalnız üçünü opera ifaçısı kimi seçir. Onlar Vahid-Rza Bayat, Ülviyyə Novruzova və İlham Nəzərov idi.

Bakının mədəni həyatında 2006-cı ildə əlamətdar hadisə baş verir. Həmin hadisə müəyyən mənada İ.Nəzərovun da həyatına öz təsirini göstərir və ifaçının teatrla ilk ünsiyyəti baş tutur. Belə ki, həmin ildə "ÜNS Yaradıcılıq Səhnəsi" fəaliyyətə başlayır. Teatrın yaradılmasında

əsas məqsədlərdən biri Azərbaycan teatr mədəniyyətinin zəngin təcrübəsi əsasında ənənə və müasirliyi birləşdirmək, Şərq-Qərb ənənələrinin sintezini göstərmək idi. Bu səhnədə ilk dəfə olaraq Tofiq Quliyevin mahnılarından ibarət "Bakı" musiqili səhnə əsərinin tamaşaya qoyulması planlaşdırılmışdı. Hətta Rusiyadan teatr xadimləri – R.Nemçinskaya, M.Nemçinski və İ.İovoviç Bakıya gəlmişdilər. Tamaşada iştirak etmək üçün istedadlı gənclər dəvət olunurdu. Daim səhnəyə can atan ifaçıya burada çıxış etmək, şübhəsiz ki, vacib idi.

İ.Nəzərov teatrın fəaliyyətə başlaması haqqında xəbəri tələbə yoldaşlarından eşidir və ertəsi gün iştirak etmək məqsədi ilə "ÜNS" teatrının rəhbərliyinə müraciət edir. Lakin ifası bəyənilmədiyinə görə teatra qəbul edilmir. Bu uğursuzluq onun üçün ciddi dərs olur. Musiqiçi qətiyyən ümidini itirmir, öz üzərində səylə çalışır və hər dəfə R.Behbudov adına Mahnı Teatrı və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında keçirilən tamaşanın məşqlərinə gələrək, prosesi kənardan izləyir.

Tamaşaya hazırlıq gedirdi və teatrın açılmasına da çox vaxt qalmamışdı. Gərgin məşqlər sanki solistlərin səbrini sınaqdan keçirirdi. Bəziləri bu sınağa tab gətirməyərək tamaşada iştirak etməkdən imtina edirdilər. Bu zaman İ.Nəzərova yol açılır.

Belə ki, "ÜNS Yaradıcılıq Səhnəsi"ndə fəaliyyətə başlaması İ.Nəzərovun sənət yolunda əhəmiyyətli rol oynayaraq, gələcək uğurlarının ilk qaranquşu olur. Məhz həmin teatrının səhnəsində o, bir neçə il sonra Roberto Koççantenin "Paris Notr Dam kilsəsi" müziklində Kvazimodo obrazının ilk, təkrarsız ifaçısı kimi yaddaşlarda həkk olunacaqdı..

Həmin illərdə əməksevərliyi, çalışqanlığı ilə seçilən İlham Nəzərov bir çox mədəniyyət ocaqlarında işləməyə başlayır. 2003-cü ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, həmçinin 2005-2007-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında xor artisti kimi fəaliyyəti gənc ifaçının sənət yolunda ilkin addımları idi. Həmçinin İ.Nəzərov 2008-ci ildən Şuşa Musiqi Kollecində pedaqoji fəaliyyətlə məşğul olmağa başlayır.

Böyük səhnələrdə Azərbaycan musiqisinin, sənətinin təmsilçisi olmaq arzusu heç vaxt onu tərk etmir, əksinə, bütün varlığı ilə bu istəyin həyata keçməsinə doğru addımlayır.

İlham Nəzərovun Musiqili Teatrın səhnəsində canlandırdığı rollar, ümumiyyətlə, fəaliyyəti onun yaradıcılığında mühüm mərhələni təşkil edir. Məhz bu illərdə o, bir sıra tamaşalarda fəal iştirak etməyə başlayır. Əvvəllər İ.Nəzərov teatrın xorunda oxusa da, sonralar ona müxtəlif rolla-

rı ifa etmək həvalə olunur. İfaçıya R.Hacıyevin "Romeo mənim qonşumdur", O.Rəcəbovun "Əlin cibində olsun" və Q.Qarayevin "Çılğın qaskoniyalı" müziklindən epizodik rollar tapşırılır. Sənətçi Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işlədiyi dövrdə hətta ən kiçik obraza belə böyük həvəslə hazırlaşdığını deyir: *"Mən hər dəfə səhnəyə çıxdıqda epizodik rol olsa belə, onu istər aktyorluq, istərsə də sözlərin intonasiyası baxımından fərqli canlandırmağa çalışırdım"*.

Bəzən vokal ifaçıları (elə aktyorlar da) kiçik rolların ifasından imtina edirlər. Lakin əsl yaradıcı şəxsin düşüncəsində rolun kiçiyi, böyüyü olmur. İlham Nəzərov ən kiçik epizodlarda belə, parlaq və yaddaqalan ifası ilə seçilməyi asanlıqla bacarır. O, canlandırdığı epizodik rolu ön plana çıxararaq obrazın bədii əhəmiyyətini artırmağa nail olur.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil illəri musiqiçinin sənət yolunda əhəmiyyətli rol oynamışdır. Belə ki, müxtəlif konsertlərdə, tədbirlərdə iştirakı, yeni yaradıcılıq təcrübəsi onun bir ifaçı kimi peşəkarlıq səviyyəsinin mükəmməlləşməsinə və püxtələşməsinə səbəb olur. 2007-ci ildə Ş.Məmmədova adına Opera Studiyasında keçirilən Dövlət imtahanında V.A.Motsartın "Fiqaronun toyu" operasından Qraf Almaviva obrazı onun opera ifaçısı kimi debütü idi. Burada vokal ifaçısının müəllimləri rejissor, Bakı Musiqi Akademiyasının dosenti Zeynəb Safina və dirijor Xalq artisti Fəxrəddin Kərimov olmuşdur.











2007-ci ildə İ.Nəzərov Ü.Hacıbəyli adına Bak Musiqi Akademiyasının vokal ifaçılığı ixtisası üzrə "Solo oxuma" fakültəsinin magistratura pilləsinə daxil olur. Artıq həyatın növbəti mərhələsi yaxınlaşırdı və o, hərbi xidmətə getməli idi... Vətəni sevən, ona qəlbən bağlı olan İ.Nəzərov 2007-2008-ci illərdə Vətən qarşısındakı borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yola düşür. İfaçı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin orkestrində musiqiçi əsgər kimi həqiqi hərbi xidmət keçir. Vokal sənəti sanki onun uşaqlıq illərindən həyat vəsiqəsinə çevrilmişdi. Belə ki, hərbi xidmətin ilk aylarından başlayaraq, sənətçi burada da bütün tədbirlərdə fəal iştirak edir, daima konsertlərdə oxuyurdu...

Bu illərdə İ.Nəzərovun səsləndirdiyi M.Maqomayevin müəllifi olduğu "Azərbaycan" və "Mavi əbədiyyət" mahnıları, S.Əliyevanın "Ana", C.Quliyevin "Əsgər marşı" və digər nəğmələr bir çox tədbirlərin bəzəyinə çevrilir. Hərbi xidmət zamanı, sənətçi orkestrdə alt nəfəs alətində ifa edir. İ.Nəzərov hələ təhsil illərində bu aləti mənimsəmək üçün Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimi, Əməkdar artist Vladimir Kuznetsovdan dərs almışdı. Müəyyən ifa vərdişlərinə yiyələnməsi hərbi xidmət zamanı ona kömək olur.




İlham Nəzərov 2008-ci ildə həqiqi hərbi xidmətdə fərqləndiyinə görə Azərbaycan Respublikasının Müdafiə Nazirinin əmrinə əsasən (General polkovnik Səfər Əbiyevin 072t nömrəli 26 iyun 2008-ci il tarixli Əmri) "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı ilə təltif olunur.

Hərbi xidməti başa vurduqdan sonra, o, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında magistratura pilləsində təhsilini davam etdirir. Bu illərdə özünəməxsus repertuara və ifaçılıq üslubuna malik vokal ifaçısı kimi bir çox festivallarda, konsertlərdə oxuyur. O, dərs proqramını öyrənir və Xalq artisti Xuraman Qasımovadan ustad dərsləri alır. Səsinin ifadəli olmasına, deyilən sözlərin mənalı səslənməsinə xüsusi diqqət yetirir. Məhz bu əməyin nəticəsində 29 may 2009-cu ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Böyük zalında D.Kərimovanın müşayiəti

ilə ilk solo konsertini verməyə müvəffəq olur. Əlbəttə, bu İlham Nəzərovun yaradıcılıq bioqrafiyasında əlamətdar hadisə idi.






Həmin təhsil ocağını bitirərkən, Dövlət imtahanında P.Çaykovskinin "Yevgeni Onegin" operasından Onegin və C.Verdinin "Bal maskarad" operasından Renato obrazlarını canlandırır. 2008-2010-cu illərdə İ.Nəzərov həm də Ş.Məmmədova adına Opera Studiyasında solist kimi çalışmağa başlayır.

İlham Nəzərovun 2010-cu ilin iyun ayında Kvazimodo rolunu ifa etməsi onun yaradıcılıq yolunda böyük əhəmiyyət kəsb edir. R.Koççantenin "Paris Notr Dam kilsəsi" müziklindən Kvazimodo obrazı musiqiçinin yaradıcılıq yolunda mühüm hadisədir. İ.Nəzərov həmin obrazı dəfələrlə müxtəlif illərdə rus və fransız dilində təkcə Azərbaycanda deyil, həm də Vyana və Paris şəhərlərində ifa edir.

Müzikl "ÜNS" teatrının proqramına ilk dəfə 2009-cu ildə daxil edilir. Tamaşada əsas qəhrəman olan Kvazimodonun canlandırılması üçün məhz İlhamın seçilməsi təsadüfi deyildi. Belə ki, bu dövrdə artıq o, özünü peşəkar ifaçı və aktyor kimi təsdiqləmişdi. Kvazimodo obrazında İlhamın çıxışı teatr rəhbərliyi tərəfindən qərara alınır. Partiya yüksək tessituralı olduğu üçün vokal ifaçılığı baxımından müğənni qarşısında müəyyən tələblər qoyurdu. Bu isə böyük məsuliyyət deməkdir. İlk tamaşanın müvəffəqiyyəti teatr rəhbərliyinin seçiminin düzgün olmasını təs-

diqləmiş oldu. Tamaşa Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayevin bədii rəhbər olduğu Qara Qarayev adına Dövlət Akademik Kamera Orkestrinin müşayiəti ilə həmin ilin 14 fevralında fransız dilində səsləndi.

Uğurlu premyeradan sonra teatr rəhbərliyi müzikli Heydər Əliyev Sarayının səhnəsində tamaşaçılara təqdim etməyə qərar verir. Tamaşanı 17-18 iyun 2010-cu ildə rus dilində ifa etməsi İlham Nəzərova böyük uğur qazandırır. Xüsusilə, vokal partiyasını hazır musiqi lent yazısı ilə peşəkarlıqla səsləndirməsi sənətçinin böyük ustalığını göstərir

Sonralar ifaçı bu haqda xatirələrində belə qeyd edirdi: *"Mən tamaşanın həyatımda bu qədər əhəmiyyətli rol oynayacağını heç düşünmürdüm".*

Qeyd edək ki, Heydər Əliyev adına Sarayda baş tutan tədbir Azərbaycan və Litva Respublikaları arasında "Mədəniyyət paytaxtlarının dialoqu" adlı layihə çərçivəsində həyata keçirildi. Tamaşada birinci dərəcəli rolları Azərbaycan və Litva vokal ifaçıları canlandırırdılar. Burada əsas rollardan Esmeralda obrazını Nailə Zeynalova, Febi – Elnur Hüseynov, Flör de Lis-Səbinə Babayeva, Lope – Jeranimas Milius, Qrenquar – Meskela Povilas, Frollonu isə Viktoras Malinauskas ifa edirdilər. Rəqs səhnələri isə Polşa Balet Məktəbinin yetirmələrinə həvalə olunmuşdu. Tamaşa avropalı musiqiçilərin verdiyi tərtibatda səhnələşdirilmişdir.

Artıq İ.Nəzərov xarici ölkələrdə keçirilən tədbirlərdə də ölkəmizi təmsil etmək üçün dəvətlər alırdı. Bunlardan Almaniya, Avstriya və Macarıstanın konsert salonlarındakı çıxışları göstərmək olar. Bu illərdə Qərbi-Avropa və Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, M.Maqomayevin "Azərbaycan" mahnısı onun repertuarının "vizit kartı"na çevrilir.

Opera səhnə fəaliyyəti İ.Nəzərov yaradıcılığının yeni mərhələsini təşkil edir. İfaçının Azərbaycan opera teatrı səhnəsində canlandırdığı obrazlardan danışarkən Xalq artisti, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin "İntizar" operasını xüsusi vurğulamaq lazımdır. Yad adam obrazı ifaçının opera yaradıcılığında aparıcı rollardan biri və onun yeni sənət uğurudur. İfaçı obrazı bütün varlığı ilə duyaraq məharətlə canlandırmışdır.

Yad adam partiyası indi də İ.Nəzərovun repertuarında səslənir və onun ən çox sevdiyi rollardan biridir. Vokal ustası üstünlük verdiyi obrazlardan danışarkən aşağıdakıları qeyd edir: *"Ağır taleli və güclü xarakterə malik dramatik personajlar mənim daha çox xoşuma gəlir. Sevimli obrazım "Paris Notr Dam kilsəsi" müziklindən Kvazimodo və əlbəttə ki, "İntizar" operasından Yad adamdır".*

İ.Nəzərovun həmin operada iştirakının kiçik tarixi vardır. İfaçı

"ÜNS" teatrında keçirilən seçimlərə Seyid kişi obrazını nəzərdə tutaraq qatılır. Lakin daha sonra tamaşanın quruluşçu rejissoru, Rusiyanın Xalq artisti, "Helikon-opera" teatrının bədii rəhbəri Dmitri Bertman onun Yad adam obrazını canlandırmasına qərar verir.

Rejissorun bu qərarına müxtəlif münasibət göstərənlər də oldu. D.Bertman İ.Nəzərovu həmin rolun ifaçısı kimi seçdikdə, onun bu rolun öhdəsindən gələ bilməyəcəyini düşünənlər və rejissoru buna inandırmağa çalışanlar da az deyildi. Vokal ifaçısı dəfələrlə roldan imtina etmək istəsə də, uzaqgörən rejissor onunla razılaşmır və Yad adamı canlandırmasını təkid edirdi. Belə bir çətin anda sənətçinin inadkarlığı köməyinə çatır. İlham Nəzərovun həmin insanların inadına qarşı çıxması obrazı mükəmməl şəkildə canlandırmasına səbəb olur. Sanki bu, artistə rola xas olan qəzəbi təbii halda yaratmağa imkan verir.

Yad adam obrazı dramatikdir və vokal ifaçılığı baxımından çox çətin partiyalardandır. Lakin İ.Nəzərovun vokal ifaçılıq və aktyorluq istedadı mükəmməl surət yaratmağa imkan verir. "*Obraz o qədər canlı və inandırıcı idi ki, son səhnələrdə qeyri-ixtiyari olaraq ona nifrətlə baxırdım*" - deyə tamaşaçılar səmimiyyətlə etiraf edirdilər...

2010-cu ildə "İntizar" operası Heydər Əliyev Fondunun dəstəyi ilə yeni quruluşda səhnələşdirilir. Operanın tamaşaya qoyulmasını Azərbaycan musiqi mədəniyyətində mədəni-tarixi hadisə kimi qiymətləndirmək olar. Belə ki, operanı tamaşaçılara Azərbaycan musiqiçiləri ilə yanaşı, xarici ölkələrdən dəvət almış peşəkar heyət təqdim edirdi. Operanın dirijoru Vladimir Ponkin, quruluşçu rəssamı Hartmut Şorqhofer, xoreoqrafı Yevgeni Smirnov, xormeysteri Azərbaycan Respublikasının Xalq artisti Gülbacı İmanova, geyim üzrə rəssamı K.Xrome idi. Əsərin yeni quruluşu müasir Avropa teatr ənənələrinə əsaslanırdı.

İ.Nəzərov həyat verdiyi obraz haqqında belə deyir: "*... Mən mənfi qəhrəmanı canlandırıram. Onun üzərində işləmək çox maraqlıdır. Obraz o qədər də sadə deyil, belə ki, çox hiyləgər və məkrli bir insanın xarakterini yaratmalıyam. Lakin həyatının ən faciəli günündə onda insani hisslər baş qaldırır və düşünürəm ki, bu çox təsirli, həssas məqamdır*".

"İntizar" tamaşasının uğurlu premyerasından sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının rəhbərliyi İ.Nəzərovu solist qismində teatra dəvət edir. İki aydan sonra Xalq artisti Mənsum İbrahimovun 50 illik yubileyi ilə bağlı Ü.Hacıbəylinin tamaşaya qoyulacaq "Leyli və Məcnun" operasında Nofəl partiyasının ifası ona tapşırılır. İ.Nəzərov qısa müddət ərzində həmin obrazı müvəffəqiyyətlə canlandıraraq Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində

debütünü etmiş olur. Nofəlin Məcnunun qolundan tutub səhnəyə doğru yönləndirməsi ilə başlayan ilk səhnə çıxışı həmin teatrda bir neçə il sonra Silvio, Papaqeno, Aleko, Betto di Sinya, Kerubino, Prilepa, Yad adam kimi obrazlara aparan yolun başlanğıcına çevrilir.

Hər bir musiqiçinin həyatında elə hadisələr baş verir ki, o, yaradıcılıq axarının istiqamətini tamamilə dəyişir. Belə ki, "İntizar" operası vokal ifaçısının yaradıcılığının inkişafına və onun İtaliyada təhsilinə səbəb olur.

Heydər Əliyev Sarayında baş tutan tamaşada İ.Nəzərovun canlandırdığı obrazın ifası tamaşaçıları valeh edir. Dövlət rəhbərliyinin dəstəyi ilə o, peşəkarlığının daha da mükəmməlləşdirilməsi üçün məşhur Ozimo İncəsənət Akademiyasına təhsil almağa göndərilir.

"İntizar" operasındakı yaşadığı mənəvi çətinliyin müqabilində Tanrının yetirdiyi müvəffəqiyyət və açılan işıqlı qapı onu düz İtaliyaya aparır. Sənətçi dinləmələr zamanı bariton kimi çıxış edərək, İtaliyaya göndərilən və tələbə adını qazanan altı ifaçıdan biri olur. İlham Nəzərov 2010-cu ildən Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamına uyğun olaraq təsis edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən dünyanın ən nüfuzlu musiqi ocaqlarından birində təhsilini davam etdirir.

2010-2013-cü illəri ifaçının sənət yolunda dönüş nöqtəsi kimi dəyərləndirmək olar. Əlbəttə, vokal sənətinin beşiyi sayılan İtaliyada təhsil almaq elə də asan deyildir, bu, fasiləsiz məşqlər və öz üzərində daimi iş prosesi deməkdir. Belə bir rejim zəhmətsevər və özünə qarşı tələbkar olan İ.Nəzərov üçün adi bir haldır. Sənətçi bu məqamı belə qeyd edir: *"... Ozimo İncəsənət Akademiyasına qəbul olmaq asan deyil. Seçim turlarını keçsən belə, şərtlər ağır olduğundan təhsilini başa vurmaq çox çətindir. İfaçı məşhur bəstəkarların ariyalarını mütləq orijinal dildə səsləndirməlidir və burada tək səsin intonasiya təmizliyinə deyil, həmçinin sözlərin düzgün tələffüzünə, oxuma tərzinə, artistlik qabiliyyətinə, əsərin üslubuna və bu kimi digər xüsusiyyətlərə böyük diqqət yetirilir. İfaçının canlandırdığı obraz haqqında aydın təsəvvürü olmalıdır: o kimdir, nə düşünür? Ən əsası isə, italyan dil biliyinin olmasıdır. Əks təqdirdə, müəllimin nə tələb etdiyini, tələbə haqqında nə kimi qeydlər apardığını anlamaq çətin olar. Əgər ilin sonunda mənfi qeydlər çox olarsa, tələbə akademiyadan xaric oluna bilər".*

İtaliyaya böyük yaradıcılıq ümidləri ilə gedən İ.Nəzərov təhsilinin ilk aylarından bir sıra çətinliklərlə üzləşir, amma xarakterində olan qətiyyət, əzmkarlıq onun uğur qazanmasına yardımçı olur.

İtaliyada təhsilin birinci ilində İlham Nəzərov Akademiyadan xaric olunmaq təhlükəsi qarşısında qalır. Lakin ifaçı əzmkarlığı ilə gözlənilməz dönüşlər yaratmağı və ətrafdakıları heyrətdə qoymağı həmişə bacarmışdır. Belə ki, tədris ilinin sonunda maraqlı hadisə baş verir. Kim bilir, bu təsadüfi hadisə olmasaydı onun taleyi necə olacaqdı!..

Akademiyada bütün tələbələr üçün açıq şəkildə keçirilən növbəti dərs zamanı tələbələrdən biri "Samson və Dalila" operasından Dalilanın ariyasını ifa edir. Məhz bu an İ.Nəzərov *"O, yaxşı ifa etmir"* - deyə müəlliminə müraciət edir. Müəllimi isə *"Gəl, sən oxu"* deyir və əlavə edir: *"Bəs əgər oxuya bilməsən?"*. Sənətçinin daxilindən gələn səs sənət yolunun gələcəyini müəyyənləşdirmiş olur. Bu, sanki Alın yazısı idi... Beləliklə, o, səhnəyə çıxaraq həmin ariyanı ifa edir və uğurlu ifasının nəticəsi olaraq, qısa zamanda ilk pilləyə yüksəlməyə nail olur.

Akademiyada bir il bariton kimi təhsil aldıqdan sonra İlham Nəzərov Neapol şəhərində yerləşən San Karlo Teatrının bədii rəhbəri, bir çox nüfuzlu beynəlxalq vokal müsabiqələrinin münsiflər heyətinin üzvü, dünya şöhrətli professor, Barokko musiqisinin mütəxəssisi Vinçenzo de Vivodan onu kontratenor kimi dinləməsini xahiş edir. Tələbəsinin ifasından sonra müəlliminin ilk sözləri belə olur: *"İlham, əgər dünya səhnələrində bariton kimi oxuyacaqsansa, bu zaman minlərlə vokal ifaçısından biri olacaqsan, yox, kontratenor kimi oxumağı qərara alsan, bu zaman ilk üç ifaçıdan birinə çevriləcəksən. Kontratenor səsi Tanrının sənə bəxş etdiyi hədiyyədir! Sən axıcı və sərbəst oxuyursan. Sənət yoluna kontratenor kimi davam et"*.

Bu sözlər onun seçiminin doğruluğunu bir daha təsdiqləmiş oldu və İ.Nəzərov müəlliminin qiymətli tövsiyəsi ilə yaradıcılıq yolunu seçdi. Musiqiçi kontratenor səs tembri ilə yaradıcılığını davam etdirməsini uşaqlıq arzusunun həyata keçməsi kimi dəyərləndirir: *"Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında magistratura pilləsini bitirdikdən sonra opera sənəti üzrə Ozimo İncəsənət Akademiyasında təhsilimi davam etdirmək qərararına gəldim. Ölkəmdə opera vokal ifaçısı kimi qazandığım uğuru nəzərə alaraq, Akademiyaya bariton səsi ilə daxil olmağa qərar verdim. Anlayırdım ki, bu, elə də asan seçim deyil. Əslində mən çətinlikdən qaçmırdım. Çünki illər öncə Bakı Musiqi Akademiyasında falsetlə ustad dərsində iştirak edən zaman arzuladığım ifaçılıq bacarığının nə vaxtsa reallaşacağını bilirdim, bu səslə ifa etmək məni valeh edirdi. Ozimo Akademiyasında müəllimim kontratenor ifaçılığına olan həvəsimi görərək seçimimi dəstəklədi. Onun sözləri məni ruhlandırdı və getdiyim yolun doğruluğuna əvvəlkindən daha çox əmin olmağa başladım"*.

Vinçenzo de Vivo ilə yaradıcılıq ünsiyyəti İ.Nəzərov üçün faydalı oldu. Bəzən haqlı olaraq qeyd edirlər ki, "keçmiş müəllim" ifadəsi yox-

dur. Sənətin zirvəsində olsan belə, müəllim hər zaman müəllim olaraq qalır. Vinçenzo de Vivo ilə ünsiyyət onu daha intensiv işləməyə, dərin yaradıcılıq axtarışlarına sövq etdi. Elə indi də sənətkar yaradıcılıq məsləhətləri üçün müəlliminə müraciət edərək, ondan dəstək alır.

İ.Nəzərov kontratenor səsini hələ özündə çoxdan aşkarlamışdı, lakin necə istifadə edəcəyini bilmirdi. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasına Fransadan kontratenorun gəlməsi ilə onun narahatlığına və suallarının bir çoxuna son qoyulur: "... *Mən həmin günü çox yaxşı xatırlayıram. Hamı Qara Qarayev adına konfrans zalına toplanmışdı. Fransalı musiqiçinin kontratenorla oxumasını müşahidə edərək düşündüm ki, bu səslə ifa məndə də pis alınmayacaq*".

Amma İ.Nəzərovun bu qərarı birmənalı qarşılanmır: "*Nə? Sən kontratenorsan, yoxsa bariton?*". Ətrafındakı insanların etirazlarına, tərəddüdünə baxmayaraq, yenə də istəyində israr edir və... oxumağa başlayanda zala sükut çökür. Fransalı musiqiçi İlham Nəzərovun ifasını ayaq üstə böyük hərarətlə alqışlayaraq, ustad dərsinin bitdiyini elan edir. Bir neçə müddətdən sonra qonağın təkidi ilə onun əməkdaşlıq etdiyi şirkətin rəhbərliyi tərəfindən İ.Nəzərova müqavilə bağlamaq təklif olunur. Müqavilədə ona Barokko musiqisinin incəliklərini peşəkar şəkildə öyrətmək və Avropada professional musiqiçi karyerası vəd edilirdi. Lakin sənətçi müəyyən səbəblərə görə təklifdən imtina edir.

Artıq İtaliyada İ.Nəzərov kontratenor səsini inkişaf etdirəcəyinə qərar verir. Beləliklə, o, İtaliyada təhsilinin ikinci ilindən kontratenor kimi oxumağa başlayır və oxuduğu müddətdə həmin səs üçün yazılmış repertuarın böyük hissəsini mənimsəyir. Qısa zaman ərzində fərqli ariyaların öyrənilməsi onun yaradıcılıq təcrübəsinin artmasına səbəb olur.

Yaradıcılığının məhz bu dövründə İlham Nəzərov İtaliyada pedaqoji fəaliyyətlə də məşğul olmağa başlayır. İllər sonra müəllimlik onun ikinci əsas yaradıcılıq sferasına çevriləcək, onlarla beynəlxalq və respublika müsabiqələri laureatları hazırlayacaqdı...


HEYDƏR ƏLİYEV FONDU
FİRƏNGİZ ƏLİZADƏ
İNTİZAR


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK
OPERA VƏ BALET TEATRI
17 YANVAR 2015-Cİ İL
PREMYERA
Firəngiz Əlizadə
«İNTİZAR»
(2 pərdəli opera)
- Əyyub Quliyev
- Hafiz Quliyev
- Tahir Tahirov
- Gülbacı İmanova
- Sevil Hacıyeva
- Tamilla Şirəliyeva
- Roza Məmmədova
- İsmayıl Ələkbərov
- ƏKRƏM POLADOV
- FƏRİD ƏLİYEV
- ATƏŞ QARAYEV


24 may 2017-ci il
Tamaşa Azərbaycan Respublikasının Xalq artisti,
görkəmli bəstəkar Firəngiz Əlizadənin yubileyinə həsr olunur
«İNTİZAR»
(2 pərdəli opera)


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
4 MAY 2 0 1 4-CÜ İL
PREM YERA
Firəngiz Əlizadə
«İNTİZAR»
Tamaşanın dirijoru - Əyyub Quliyev
Quruluşçu rejissor - Hafiz Quliyev
Quruluşçu rəssam - Tahir Tahirov
Xormeysterlər - Gülbacı İmanova
- Sevil Hacıyeva
Rəqslərin quruluşu - Tamilla Şirəliyeva
Konsertmeysterlər - Roza Məmmədova
Tamaşanın idarə edir - İsmayıl Ələkbərov
- ƏKRƏM POLADOV
- QƏRİNƏ KƏRİMOVA
- İLHAM NƏZƏROV
- AFAQ ABBASOVA
- FƏRİD ƏLİYEV
- FƏHMİN ƏHMƏDLİ
- FƏRİDƏ MƏMMƏDOVA
- SƏBİNƏ VAHABZADƏ
- TURAL AĞASIYEV


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
Firəngiz Əlizadə
"İNTİZAR"
(2 pərdəli opera)
Librettonun müəllifi - professor Nərgiz Paşayevadır
Bakı - 2015-2016-cı illər teatr mövsümü


AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
19 yanvar 2019-cu il
Firəngiz Əlizadə
«İNTİZAR»
(2 pərdəli opera)
Librettonun müəllifi – filologiya elmləri doktoru, professor Nərgiz Paşayevadır
Əyyub QULİYEV
Hafiz QULİYEV
Tahir TAHİROV
Sevil HACIYEVA
Tamilla ŞİRƏLİYEVA
Nərgiz AĞAYEVA
Aysel MƏLİKOVA
İsmayıl ƏLƏKBƏROV
ƏKRƏM POLADOV
QƏRİNƏ KƏRİMOVA
FƏRİD ƏLİYEV
FƏHMİN ƏHMƏDLİ
FƏRİDƏ MƏMMƏDOVA
SƏBİNƏ VAHABZADƏ
TURAL AĞASIYEV


18 dekabr 2015-ci il
Firəngiz Əlizadə
«İNTİZAR»
(2 pərdəli opera)
Librettonun müəllifi -Nərgiz Paşayevadır
ƏKRƏM POLADOV
QƏRİNƏ KƏRİMOVA
İLHAM NƏZƏROV
GÜLNAZ İSMAYILOVA
FƏRİD ƏLİYEV
FƏHMİN ƏHMƏDLİ
FƏRİDƏ MƏMMƏDOVA
SƏBİNƏ VAHABZADƏ
TURAL AĞASIYEV
Roza Səlimova
Tamaşa saat 19.00-da başlanır






1 iyun 2007-ci il
saat 15.00
Opera studiyası
Opera hazırlığı və solo ifaçılığı kafedrası
DÖVLƏT İMTAHANI
Verdi „Traviata"
(IV - akt)
Violetta - Əhmədova Sabina
(magistratura)
Bize „Karmen"
Mikaella - Axundova İradə
(IV - kurs)
F. Əmirov „Sevil"
Sevil - Novruzova Ülviyyə
(IV - kurs)
Rossini „Sevilya bərbəri"
Don Bazilio - Vahid-Rza Bayat
(IV - kurs)
Motsart „Fiqaronun toyu"
Qraf - Nəzərov İlham
(IV - kurs)
Giriş sərbəstdir


ABŞ Səfirliyi
Mədəniyyət və İncəsənət Universiteti və
Musiqi Akademiyası ilə birgə
"BRODVEY BAKIDA" Musiqili Şou proqramını
təqdim edir
Mədəniyyət və İncəsənət Universitetinin Tədris Teatrı
1 May 14.00
Musiqi Akademiyası
2 May 19.30


BAKI MUSİQİ AKADEMİYASI
Solo oxuma və opera hazırlığı kafedrası
DÖVLƏT İMTAHANI
"Aida" – Vedri
Aida – Dadaşova R. II kurs, magistr
"Traviata" - Verdi
Violetta – Abbasova A. IV kurs, bakalavr
– Verdi
Cilda – Əhmədova F. IV kurs, bakalavr
Drijor – K. Əliverdibəyov.
Rejissor – prof. G. Gülahmədova – Martınova.
Konsertmeyster – İ. Sadıqzadə, T. Lyovkina
– Motsart
Qrafiniya – Fətullayeva L. IV kurs, bakalavr
– Donisetti
Nemorino – Məhəmməd Ümid Turdçin.
IV kurs, bakalavr
Adina – Məmmədova E. IV kurs, bakalavr
Drijor – prof. Əliyev. A.
Rejissor – prof. Məmmədova. S.
Konsertmeyster – Bağırova. N.
"Yevgeni Onegin" – Çaykovski
Onegin – Nazərov İlham. Magistr
"Sevil" – Fikrət Əmirov
Sevil – Quliyeva S. IV kurs, bakalavr
– Verdi
Ameliya – Qasımova T. II kurs, magistr
Renato – Nazərov İlham. II kurs, magistr
Drijor – F. Kərimov.
Rejissor – Z. Safina.
Konsertmeyster – G. Ağamalıyeva
Operalardan parçalarda opera studiyasının solistləri iştirak edirlər.


NOTRE DAME DE PARIS
İfa edirlər:
Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri
Bədii rəhbər və baş dirijor:
Teymur Göyçayev
Solistlər:
Nəzərov İlham - Kvazimodo
Zeynalova Nailə - Esmeralda



YENİ TEATRIN İLK TAMAŞASI
23, 24, 28 aprel 2006
"BAKI"
Musiqili tamaşa
TOFİQ QULİYEVİN mahnıları əsasında
İştirak edirlər:
Aqşin Abdullayev
Aygün Mahmudova
Cavad Tağızadə
Emin Məmmədli
Fatimə Cəfərzadə
Humay Nuriyeva
Xəyyam Mustafazadə
İlham Nəzərov
Ləman Kərimova
Miriş Hüseynov
Nailə Zeynalova
Nəzrin Zərbəliyeva
Pərviz Ağayev
Səidə Şərafəliyeva
Vüqar Hacıyev
Zakir Teymurxanlı
Quruluş: R.Y.NEMÇİNSKAYA QİTİS Moskva
M.İ.NEMÇİNSKİY QİTİS Moskva
AZƏR PAŞA NEYMƏT Bakı
Musiqinin tərtibatı: İ.O.İOLOVİÇ QİTİS Moskva
Musiqinin işlənməsi və müşayiət: SALMAN QƏMBƏROV və "BAKUS"
Vokalın işlənməsi: RAUF BABAYEV
Plastika üzrə rejissor: A.A.LELYA QİTİS Moskva
"Bakı"




HEYDƏR ƏLİYEV SARAYI
17, 18 İYUN SAAT 20:00
NOTRE DAME DE PARIS
Məhəbbət və nifrət, ehtiras və iztirab, sədaqət və xəyanət əhvalatı yaradıcı qüvvələrin məkanı
"ÜNS" teatrının solistləri
Nailə Zeynalova və İlham Nəzərov
"Avroviziya-2008" müsabiqəsinin iştirakçısı
Elnur Hüseynov
beynəlxalq müsabiqələr laureatı
Səbinə Babayeva
Litva səhnəsinin ulduzları Devidas Norvilas, Jeronimas Milius, Viktoras Malinauskasın təqdimatında




AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI
Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri
11 NOYABR 2010
PAVAROTTİ
Dahi müğənninin 75 illiyinə həsr olunur
DİRİJORLAR:
YALÇIN ADIGÖZƏLOV
(AZƏRBAYCAN)
VİKTOR PLOSKİNA
(BELARUSİYA)
SOLİSTLƏR:
DANİLO FORMAGGİA
(İTALİYA)
SVETLANA SOZDATELEVA
(RUSİYA)
ALLA PLOSKİNA
(UKRAYNA)
İLHAM NƏZƏROV
(AZƏRBAYCAN)
Konsert saat 19:00 başlanır.




AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
Azərbaycan Dövlət Filarmoniyasının
KAMERA VƏ ORQAN MUSİQİ ZALI
4
QƏDİM MUSİQİ AXŞAMI
Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri
Bədii rəhbər və baş dirijor
Azərbaycan Respublikasının Xalq Artisti
TEYMUR GÖYÇAYEV
Solistlər
Azərbaycan Respublikasının əməkdar artisti
Dilarə Mehdiyeva (violin)
Beynəlxalq Müsabiqələr Laureatları
Lalə Murşüdli (cello)
Aytac Şıxəlizadə (mezzo-soprano)
İlham Nəzərov (kontr-tenor)
PROQRAMDA İ.S.Bax və A.Vivaldinin əsərləri səslənəcək













Ozimo İncəsənət Akademiyasında İ.Nəzərovun dərs aldığı müəllimlərdən dünya şöhrətli opera müğənnisi, Çio-Çio-San obrazının mahir ifaçılarından Raina Kabaivanskaya olmuşdur. R.Kabaivanskaya kontratenor ifaçılığını ciddi qəbul etmirdi. Bir gün İ.Nəzərovun ifası zamanı R.Kabaivanskaya zalı tərk edir, ariyanın sonunda yenidən içəri daxil olaraq onu təbrik edir. Səsinin təbii olduğunu və soprano ifaçılarından qətiyyən seçilmədiyini, kənardan dinləmək üçün zaldan çıxdığını bildirir.

Beləliklə, kontratenorla professional şəkildə məşğul olması ilə İlham Nəzərovun yaradıcılığında yeni mərhələ başlayır. Sırf vokal ifaçılığı yönümündən qiymətləndirdikdə, bu səs aparatının tamamilə başqa işləmə prinsipinə əsaslanması anlamına gəlir.

Qısa bir müddətdə kontratenor ifaçılıq texnikasını mənimsədikdən sonra bir çox dünya səviyyəli beynəlxalq müsabiqələrə, seçim turlarına qatılaraq uğurla çıxış edir. Bu sənətçinin yaradıcılığının şaxələnməsinə və püxtələşməsinə səbəb olur. Artıq bu illər ərzində İ.Nəzərovun kontratenor kimi özünəməxsus ifaçılıq üslubu formalaşmağa başlayır.

Peşəkar ifaçı kimi sənətdə irəliyə doğru addımlayaraq, dünyanın məşhur beynəlxalq musiqi festivallarında, müxtəlif müsabiqələrdə, konsert və opera tamaşalarında çıxışlar edir. Burada ifa olunan əsərlər janr müxtəlifliyi, üslub rəngarəngliyinə görə bir-birindən fərqlənirdi. O, bir konsert və ya opera tamaşasından digərinə dəvətlər alır, seçimlərə qatılır, yüzlərlə iştirakçı arasından qalib olaraq tamaşalarda iştirak edir. Sanki bir konsert digərinə aparan zəncirin davamına çevrilir...

İlham Nəzərov yaradıcılığında Rinaldo, Sesto, Arnalta, Neron, Orfey, Oberon və ona şöhrət gətirən onlarla digər rolları Avropa teatrlarının səhnəsində canlandırır: ...

Məhz 2011-ci ildən başlayaraq İ.Nəzərovun yaradıcılığı iki istiqamətdə şaxələnir: o, həm kontratenor, həm də bariton kimi çıxışlar edir. Səntəkarın yaradıcılığında bu illərdən başlayaraq kontratenor səsi ilə ifaları üstünlük təşkil etməkdədir.

Hər bir tamaşada formalaşan yaradıcılıq atmosferi, müxtəlif rejissor və görkəmli musiqiçilərlə – R.Muti, V.Fedoseyev, R.Allessandrini, A.Qreko, V.Ponkin, K.Qoldşteyn, C.Rovaris, Y.Klekker, R.Lorenzetti, Q.Qimeno, A.Levis, V.Voronin, R.Berqman, F.Santi, D.Alkano, A.Qalanov, E.Seredinseva, O.Tausk, A.Pierson, M.Tadeus, Q.Prays, D.Çarlez-Abell, P.Destro, K.Poppen, F.Festa, A.Makarov, J.Tiel, M.Calbirov, A. de Marçi, K.Çurnyn, A.Vekumniyeks, C.Marçano, A.Rozini, M.Ammaniti, D.Çin, H.Yunqer, V.Ploskina, J.Bernaker, F.Edison A.Ülgen, R.Molinelli, M.Kal-

di, O.Dantone, E.Baltabay, R.Reçça, D.Xoxlov, P.Ştayn, D.Bertman, M.Beattie, L.Piavano Ş.Vey, A.Perez, H.Miller, S.Demiçelli və bir çox digərləri ilə ünsiyyət onun yaradıcılığının zənginləşməsinin, obrazların daha da həqiqi və mükəmməl alınmasının səbəblərindəndir. İ.Nəzərov hər bir rolu canlandırarkən onu real çalarlarla dolğunlaşdırmağa çalışır, obrazın bənzərsiz, fərdi olmasına can atır.

Vokal ifaçısının Avropanın müxtəlif opera səhnələrində debütləri haqqında *"Azərbaycanlı artistin bu rolda ilk çıxışı çox uğurla alındı. O, gözəl və eyni zamanda güclü səsə malikdir"* və ya *"... İ.Nəzərovun yaradıcılıq bioqrafiyasında Barokko operalarından müxtəlif xarakterli və diapazonlu obrazlar üstünlük təşkil edir. Onun səsinin xüsusiyyətləri hər bir partiyanın öhdəsindən ustalıqla gəlməsinə imkan verir"* - kimi yanaşmalar qəzetlərdə dərc olunur. Qeyd edək ki, Avropa mətbuatının azərbaycanlı kontratenorun ifası haqqında fikirləri yetəri qədərdir.

İ.Nəzərovun yaradıcılıq aktivliyinə və məqsədyönlülüyünə heyrət etməmək mümkün deyil. O, demək olar ki, bir il ərzində (teatr mövsümü) altı fərqli obraz yaradır! Bu partiyalar hazırda da onun repertuarındadır. Qeyd edək ki, bu illərdə sənətçinin əsas opera repertuarı artıq formalaşmışdı.

Geniş diapazonlu səsə malik olması ona fərqli tessituraya malik partiyaları ifa etmək imkanını verir. Hətta burada musiqiçinin bir opera tamaşasında iki müxtəlif partiyaları da ifa etdiyini görürük. O, K.Montervedinin "Pompeyin taxta çıxması" operasında həm Arnalta, həm də Neron partiyalarını müxtəlif illərdə ifa etmişdir. Maraqlıdır ki, Neron soprano, Arnalta isə kontralto səsi üçün nəzərdə tutulmuşdur. Həmçinin bir opera daxilində yaradılan müxtəlif obrazlardan danışarkən, Q.F.Hendelin "Yuli Sezar Misirdə" operasında Sesto və Nireno partiyalarını da göstərmək olar. Əlbəttə, belə nümunələrin sayı İ.Nəzərov yaradıcılığında çoxdur.

Onun obrazlar albomu rəngarəngdir: Roma imperatoru, cəngavər, Pompeyin oğlu, pərilərin kralı və Orfey... Əlbəttə, onlarla obraza həyat vermək həm ifaçılıq, həm də aktyorluq baxımından mürəkkəb prosesdir, müğənnidən fiziki güc və yüksək ifaçılıq potensialı tələb edir.

Sənətkarın yaradıcılığında digər önəmli cəhət fərqli repertuarla solo konsertlər verməsidir. Belə ki, ifaçının 2011-ci il 22 sentyabrda Ü.Hacıbəyli adına III Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində "Gəncliyin səsi" adlı ikinci solo konserti baş tutur .

Həmin ilin 24 sentyabrında İ.Nəzərov V.A.Motsartın "Sehirli fleyta"



operasından Papaqeno partiyasını da ifa edir. Xalq artisti, professor Musa Mirzəyev həmin tamaşa haqqında belə söyləyir: "... *Vokal ifaçıları partiyanın öhdəsindən peşəkarlıqla gəldilər. Musiqiçilərimizin V.A.Motsartın "Sehirli fleyta" operasında mükəmməl çıxışı onların yüksək peşəkarlığını bir daha sübut etdi. Mən teatrımızla fəxr edirəm!"*. Həmin tamaşadan bir ay sonra o, R.Leonkavallonun "Məzhəkəçilər" operasından Silvio obrazını canlandırır.

Vokal ifaçılıq imkanlarının genişliyi, hər bir obrazın dərin və hərtərəfli şəkildə dərki, incə musiqi duyumu... Bütün bu keyfiyyətlər İlham Nəzərovda necə əks olunub, necə cəmləşib? Bu suala yalnız belə cavab vermək olar: Tanrının bəxş etdiyi mükəmməl istedad sayəsində! Həmçinin müxtəlif musiqiçilər, bəstəkar və digər sənət adamları ilə gözəl yaradıcılıq ünsiyyəti onun şəxsiyyətinin püxtələşməsinə və bacarıqlarının cilalanmasına öz təsirini göstərmişdir.

Qısa müddət ərzində opera tamaşaları İlham Nəzərovun yaradıcılığında daha əhəmiyyətli yer tutmağa başlayır. Belə ki, K.Monteverdi, A.Vivaldi, xüsusilə Q.F.Hendelin operaları vokal ustasının əsas repertuarına çevrilir. Əvvəl də bariton kimi Barokko dövrünün ariyalarını ifa etməsinə baxmayaraq, İtaliyada təhsil illərində o, bu üslubda düzgün oxumağı öyrənir və biliyini kamilləşdirir. İtaliya qəzetlərində onun ifası haqqında bu fikirlərə rast gəlinir: *"Gənc, lakin çox istedadlı ifaçıdır…", "Dünən səhnələşdirilən tamaşada ən böyük müvəffəqiyyət İlham Nəzərova məxsusdur..."*.

Musiqiçinin İtaliyada bariton kimi canlandırdığı ilk obraz Q.Donisettinin "Məhəbbət şərbəti" operasından Belkore obrazı olur. Tamaşa 2011-ci ildə Venesiya Opera Teatrında səhnəyə qoyulur. Həmçinin bu illərdə İ.Nəzərov C.Perqolezinin "Qulluqçu-xanım" operasından Uberto obrazını Fiorentino teatrının səhnəsində müvəffəqiyyətlə canlandırır.

İ.Nəzərovun devizi – "Əgər yarada bilirəmsə, yaşayıram" müqəddəs bir amala çevrilir. Həmçinin bu illəri yaradıcılıq uğurlarının davamı kimi də səciyyələndirmək olar. Sənətdə yaşamaq və yaratmaq məfhumları üzvi surətdə birləşərək onun həyat tərzini təcəssüm etdirir. Özünü sənətdə tapmaq, səhnədə təsadüfi olmadığını hiss etmək hər bir sənət

adamının əsl xoşbəxtliyidir. O, respublikamızda keçirilən musiqi tədbirləri ilə yanaşı, Avropanın nüfuzlu festivallarında, opera tamaşalarında çıxışlar edərək hər zaman tamaşaçıların alqış və rəğbəti ilə qarşılanır...

İ.Nəzərov Azərbaycan mədəniyyətinin xaricdə təbliğ olunması məqsədilə keçirilən bir çox konsertlərin iştirakçısıdır. O, İtaliyada keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Turin, Venesiya və Milanda təşkil olunan konsert proqramlarında ölkəmizin digər mədəniyyət xadimləri ilə birlikdə çıxış etmişdir. Həmçinin İsveç, Fransa və Almaniyada keçirilən müxtəlif konsertlərdə həm bariton, həm də kontratenor kimi müxtəlif partiyaları ifa etmişdir. Burada İsveçdə keçirilən "Beynəlxalq Barokko Musiqi festivalı"nda kontratenor kimi Azərbaycan vokal ifaçılıq məktəbini yüksək səviyyədə təbliğ etməsini vurğulamaq istərdik. Məhz bu konsertdən sonra ifaçı Avstriyada çıxış etmək üçün dəvət almışdır.








AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
9 OKTYABR 2010-CU İL
MƏNSUM İBRAHİMOV
NƏZAKƏT TEYMUROVANIN
«LEYLİ və MƏCNUN»
SEVİL HACIYEVA


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
21 OKTYABR 2012-Cİ İL
İLHAM NƏZƏROV
İLAHƏ ƏFƏNDİYEVA
ƏKRƏM POLADOVUN
"ALEKO"


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
22 SENTYABR 2012-Cİ İL
PREMYERA
"CANNİ SKİKKİ"


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
24 SENTYABR 2011-Cİ İL
İNARƏ BABAYEVA
GÜLNAZ İSMAYILOVA
ƏLİ ƏSGƏROVUN
PREMYERA
«SEHİRLİ FLEYTA»


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK
OPERA VƏ BALET TEATRI
17 YANVAR 2015-Cİ İL
PREMYERA
«İNTİZAR»
Firəngiz Əlizadə
- Əyyub Quliyev
- Hafiz Quliyev
- Tahir Tahirov
- Gülbacı İmanova
- Sevil Hacıyeva
- Tamilla Şirəliyeva
- Roza Məmmədova
- İsmayıl Ələkbərov
- ƏKRƏM POLADOV
- İLHAM NƏZƏROV
- GÜLNAZ İSMAYILOVA
- AFAQ ABBASOVA
- FƏRİD ƏLİYEV
- ATƏŞ QARAYEV
- FƏRİDƏ MƏMMƏDOVA
- SƏBİNƏ VAHABZADƏ
- TURAL AĞASIYEV


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK
OPERA VƏ BALET TEATRI
9 OKTYABR 2011-Cİ İL
AZƏR ZEYNALOV
FƏRİDƏ MƏMMƏDOVA
ANTON FERŞTANDT
İLHAM NƏZƏROVUN
Rudjero Leonkavallo
«PAYATSI»
- Cənnət Səlimova
- Tahir Tahirov
- Ağarəhim Əliyev
- Sevil Hacıyeva
- Məlahət İsmayılova
- Kamil Sultanov
- AZƏR ZEYNALOV
- FƏRİDƏ MƏMMƏDOVA
- ANTON FERŞTANDT
- İLHAM NƏZƏROV
- BƏHRAM ƏLİYEV
- TURAL AĞASIYEV
YALÇIN ADIGÖZƏLOV


12 mart 2016-cı il
Pyotr Çaykovski
PREMYERA
«QARATOXMAQ QADIN»
ANDREY ROMANENKO
MİXAİL KİRİŞEV
FƏRİDƏ MƏMMƏDOVA
SƏBİNƏ VAHABZADƏ
ANTON FERŞTANDT
SƏBİNƏ ƏSƏDOVA
İLHAM NƏZƏROV
TURAL AĞASIYEV
TƏLƏT HÜSEYNOVUN
İştirakı ilə
YALÇIN ADIGÖZƏLOV
SEVİL HACIYEVA


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK
OPERA VƏ BALET TEATRI
28 SENTYABR 2014-CÜ İL
PREMYERA
«FİQARONUN TOYU»
DMİTRİ QRİŞİN
VLADİMİR ROMOV
FƏRİDƏ MƏMMƏDOVA
İNARƏ BABAYEVA
SƏBİNƏ ƏSƏDOVA
ƏKRƏM POLADOV
ƏLİ ƏSGƏROV
İLHAM NƏZƏROV
TURAL AĞASIYEV
RƏNA XUDATZADƏNİN
Əyyub Quliyev
Nikolay Tretyak
Yusif Babayev
Sevil Hacıyeva



XVI PERGOLESI SPONTINI FESTIVAL
1-25 SETTEMBRE 2016
VENTO DI SOAVE
22. ASPENDOS OPERA ve BALE FESTIVALI
Eylül 2015
1 SETTEMBRE
JESI PIAZZA FEDERICO II
IL VOLO DELL'A
L'INCORONAZIONE DI POPPEA
BSO
CARL ORFF
CARMINA BURANA
Teatro Coccia
Domenica 10 novembre 2019 ore 20.30
Mettici il cuore Cannavacciuolo all'Opera
Opera live cooking
23 Haziran June 2018
Cumartesi Saturday, 21.00
Bilkent Odeon
GLI ORTI ESPERIDI
Teatro TOSTI
8 Lunedì Gennaio 2014 ore 19.30
LA DIRINDINA
DOMENICO SCARLATTI
Veronica Quagliata
NÁRODNÍ DIVADLO BRNO
SEN NOCI SVATOJÁNSKÉ
Benjamin Britten
Lucca, Teatro del Giglio
sabato 14 gennaio 2017, ore 20.30
ORLANDO FURIOSO
stagione lirica
Il Zelo Animato, Napoli 1733
Kazak Aydını
02.2020 / Saat: 18.00
DI PASQUA



ACCADEMIA D'ARTE LIRICA OSIMO
L'elisir d'amore
di G. Donizetti
TEATRO DI SAN CARLO
stagione lirica e di balletto 2012-2013
CARMINA BURANA
Musica di CARL ORFF
Ideazione Visiva, Coreografia, Scene e Costumi
SHEN WEI
Direttore
JORDI BERNÀCER
Maestro del Coro
SALVATORE CAPUTO
Maestro del Coro di Voci Bianche
STEFANIA RINALDI
ORCHESTRA, CORO, CORPO DI BALLO
e CORO DI VOCI BIANCHE DEL TEATRO DI SAN CARLO
PRIMA ASSOLUTA – NUOVO ALLESTIMENTO DEL TEATRO DI SAN CARLO
DIE FLADERMAUS
JOHANN STRAUSS
AGNETHA KÖHLER
HANNAH BUCHNER
AGNES MULLER
ARTUR EBERHA
ILHAM NAZAROV
FELIX
DONALDSON
Teatro dell'Opera
Il Naso
Opera in tre atti e un epilogo
Musica di Dmitrij Šostakovič
Direttore Alejo Pérez
Regia Peter Stein
Bülbül adına Orta Musiqi Məktəbinin 90 illik yubileyinə həsr olunmuş
19 DEKABR
Концертный
Торжеств
TÜRK DÜNYASI
"PER LA CIVILTÀ"
Le vie dell'amicizia: l'Albero della Vita Ravenna-Otranto
direttore
Riccardo Muti
FONDAZIONE CASSA DI RISPARMIO DI RAVENNA
La Cassa
41° FESTIVAL DELLA VALLE D'ITRIA 2015
MARTINA FRANCA
GIOVANNI
www.fondazionepergolesispontini.com

Sənətçi üçün hər bir uğurlu ifa zirvəyə doğru aparan növbəti addımdır.Qazanılan hər bir nailiyyət və yeni müvəffəqiyyət məsuliyyətdir! İlham Nəzərov əldə etdiyi uğurlarla kifayətlənmir, vokal ifaçılıq sənətinin sirlərinə, daim kamilliyə, obrazın dolğun ifasına səy göstərərək yaradıcılıq fəaliyyətini daha da genişləndirir.

Sənətçi müsahibələrində məhz bu məqamlara toxunaraq belə qeyd edir: "*Bəzən tamaşadan bir neçə gün sonra İtaliyanın digər şəhərində və ya tamamilə başqa bir ölkədə fərqli tamaşanı oxuyurdum. Rejissorla, orkestrlə məşqlərə çox az vaxtım olurdu. Qısa zaman ərzində səhnəyə çıxırdım. Təsəvvür edin, vokal ifaçısı üçün səsi qorumaq, vücudu formada saxlamaq, yuxusuz olmaq nə qədər çətindir. Bu çətinliklər məni yormur, tam əksinə, daha da gücləndirir və ruhlandırırdı. Çünki bu partiyaları ifa etməyi çox istəyir, işimi sevə-sevə görürdüm. Bəlkə də mən fərqinə varmadığım məsuliyyəti öz üzərimə götürürdüm*".

İlham Nəzərov 2012-ci ildə 38-ci "İtriya vadisi festivalı"nda iştirak üçün dəvət alır. İfaçını həmin festivala Alberto Triola dəvət edir və ona Luidci Rossinin "Orfey" operasında ifa etməyi təklif edir. Tamaşaya müasir quruluşda tərtibat verilirdi. Daim yeniliklərə can atan ifaçı üçün bu, maraqlı yaradıcılıq prosesi demək idi.

Sənət adamları varlıqlarına hakim olan yaradıcılıq eşqini sanki daima üzə çıxarmağa, ifadə etməyə təşəbbüs göstərirlər. İlham Nəzərov ona xas olan əməksevərlik və böyük həvəslə bir neçə günə Orfey partiyanı öyrənir və həmin obrazı müvəffəqiyyətlə canlandırır. Premyeranın uğurlu keçməsi tamaşanın İtaliyanın daha iki şəhərində səhnələşdirilməsinə səbəb olur. "Orfey" operasının yeni quruluşda təqdimatı və əsas rolda İ.Nəzərovun çıxışı haqqında xarici mətbuat öz müsbət rəyini bildirir. Tənqidçilər obrazın özünəməxsusluğu və orijinallığı barədə yazırdılar: "... *Müğənnilərin əsərin musiqi üslubuna və artistlik ifaçılığına inamla yiyələnməsinin çox gözəl təəssürat bağışlamasını məmnuniyyətlə qeyd etmək istəyirəm... Orfey rolunda isə azərbaycanlı ifaçı İlham Nəzərov (Ozimo İncəsənəti Akademiyasının tələbəsi) çıxış etmişdir. Orfeyin partiyası kifayət qədər dolğun və parlaq rəng çalarına malik idi..*"

İ.Nəzərovun beynəlxalq uğurları yerli mətbuatda dəfələrlə işıqlandırılır: "*İtaliyanın Martina Franka şəhəri yenə də hər il olduğu kimi musiqisevərlərin diqqət mərkəzindədir. Növbəti dəfə "della Valle d'Itria" Barokko musiqisi festivalı keçirilir. C.Verdi teatrının səhnəsinə çıxan gənc oğlan Orfey partiyasını böyük məharətlə ifa edir. Səsinin təmizliyi, mimika, hərəkətləri və hətta göz yaşlarının təbiiliyi dinləyiciləri valeh edir. Zalda xüsusi enerji hökm sürür. İfa sona çatmışdır. Tamaşaçılar onu fasiləsiz alqışlayırlar. Bravissimo! Həmin kontratenor kimdir? Böyük fəxrlə İtaliya səhnəsində çıxış edən həmyer-*

*limizin beynəlxalq vokal müsabiqələrinin qalibi, Dövlət Xor Kapellasının artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının və "ÜNS Yaradıcılıq Səhnəsi"nin solisti İlham Nəzərov olmasını bildiririk".*

Avropada uğurlu opera tamaşalarından sonra ifaçı Bakıya qayıdır. O, opera teatrının səhnəsində Betto de Sinya obrazı ilə çıxış etmək üçün dəvət alır.

Səhnə davranışı, istər bariton, istərsə də kontratenor səsində kamil vokal ifaçılığı onun uğurlarının əsasını təşkil edir. Yaradıcılığının çətin və mürəkkəb sınaqları qələbə ilə nəticələnir. Bu çətinliklər ifaçının sənət yolunda təkanverici qüvvəyə çevrilir. Dünyanın bir çox teatrları onu səhnələrinə dəvət edirlər, beləliklə, müxtəlif tamaşalar, konsertlər, yaradıcılıq layihələri bir-birini əvəzləyir...

Artıq on ildən çoxdur ki, İ.Nəzərov təkcə Azərbaycanın deyil, həm də Avropanın musiqi həyatında yaxından iştirak edir. Sənətçi R.Leonkovallo, S.Raxmaninov, C.Puççininin operalarından müxtəlif partiyaları müvəffəqiyyətlə ifa edir. İ.Nəzərov canlandırdığı qəhrəmanları özünəməxsus şəkildə təcəssüm etdirir, obrazları yeni cizgi və çalarlarla zənginləşdirərək böyük məharət və ustalıqla yaradır.

Artıq bu illərdə sənətçi italyan dilində sərbəst danışırdı. Dil çətinliyinin müvəffəqiyyətlə dəf edilməsi ona istənilən musiqi obrazının dərindən çatdırılmasına, kamil sənət nümunəsi, daha dərin məzmunlu və orijinal obraz yaratmasına kömək olurdu.

2013-cü il ifaçının yaradıcılığında mühüm çıxışlarla yadda qalan bir zamandır. Məhz həmin il o, Roma, San-Karlo, Venesiya, Liseo, Dortmund, La Monne kimi dünyanın ən mühüm opera teatrlarında çıxışları ilə böyük uğurlara imza atır.

Bu ilin ilk müvəffəqiyyəti D.Şostakoviçin "Burun" operasında Kovalyovun dostu obrazını canlandırması olur. İ.Nəzərov tamaşada iştirak üçün yüzlərlə ifaçı arasından seçilir və o, dünyanın məşhur Roma Opera Teatrında çıxış edən ilk azərbaycanlı kimi tarixə düşür. Qeyd edək ki, sənətçi tamaşada dörd fərqli obrazı canlandırmışdır. Bu haqda müsahibələrinin birində o, belə qeyd edir: "*Roma teatrında çıxış edən opera müğənnilərindən biri də mənəm. Yanvar ayında D.Şostakoviçin "Burun" operasında Kovalyovun dostu obrazını canlandırdım. Tamaşada Rusiyadan, Ukraynadan, İspaniyadan solistlər iştirak edirdilər. Onlarla bir səhnəni bölüşmək həm olduqca məsuliyyətli, həm də əlamətdardır. D.Şostakoviçin musiqisi yetərincə çətindir. Çox şadam ki, gərgin məşqlərin sonunda nəticə uğurlu oldu".*

Tezliklə musiqiçi "Vokalçıların Bülbül adına VI Beynəlxalq müsabiqəsi" çərçivəsində təşkil olunan dinləyişdə kontratenor kimi iştirak

edir. Dinləyişdəki parlaq çıxışından sonra B.Brittenin "Yay gecəsində yuxu" operasından Oberon obrazı İlham Nəzərova həvalə olunur və tamaşa 2013-cü ilin martında Çexiyada səhnəyə qoyulur. İ.Nəzərov tamaşaya böyük səylə hazırlaşır. O, bu obrazı Çexiyanın müxtəlif şəhərlərində bir neçə dəfə canlandırmalı idi. İlk iki çıxışı böyük müvəffəqiyyətlə keçir, lakin vokal ifaçısı sonra bərk xəstələnir. O, səsindən ehtiyatla istifadə edərək, peşəkarlıqla partiyanın uğurlu ifasına nail olur. Heç kim onun səhnəyə yüksək hərarətlə çıxdığının fərqinə belə varmır.

Brno Milli Teatrında səhnələşdirilən "Oberon" operasında İ.Nəzərovun ifası haqqında çexiyalı tənqidçilər bu fikirləri qeyd edirdilər: *"Tamaşada Oberon rolu azərbaycanlı kontratenor İlham Nəzərova həvalə olunmuşdur. Dəqiq ifaçılıq texnikası, yüksək vokal göstəricilərinə malik sənətçi səhnədə çox sərbəst və inandırıcıdır".*

Musiqi tənqidçisi Yan Dehner ifaçıların, xüsusilə İ.Nəzərovun rolunu yüksək qiymətləndirərək məqaləsində aşağıdakıları yazır: *"Vokal ifaçılarının çıxışı yüksək səviyyədədir. İlham Nəzərovun (o, həmçinin bariton partiyalarını ifa edir!) canlandırdığı obraz balanslaşdırılmış gözəl səs ilə ifa edilmişdir, onun ifasını həm görünüşü, həm də aktyorluq qabiliyyəti fərqləndirir".*

"Oberon" operasına alman mətbuatı da öz münasibətini bildirir: *"Oberon obrazı İlham Nəzərov tərəfindən canlandırıldı. O,İtaliyada kontratenor kimi təhsil almış, karyerasına isə bariton kimi başlamışdır. Hal-hazırda kontratenor partiyalarını ifa edir. O, ifası ilə nağıllar aləminin bir parçasına çevrilməyi bacarmışdır".*






Photo by Jana Hallo

Sənətçi müsahibəsində Oberon obrazı haqqında aşağıdakıları qeyd edir: *"Mart ayının 8-də 1500 nəfərlik möhtəşəm Yanoçkova Opera Teatrında rejissor Roman Meluzin və dirijor Yakub Klekkerin idarəçiliyi ilə B.Brittenin "Yay gecəsində yuxu" operasında baş rolu canlandırdım. Oberon rolu məhz kontratenor üçün yazılmışdır. Demək istərdim ki, bu rol mənim üçün maraqlı olduğu qədər, həm də çətin idi. Kontratenorlar səsinin xüsusiyyətinə görə soprano və kontralto olmaqla iki yerə bölünürlər. Soprano səs çalarına malik ifaçılar üçün yazılan repertuar azlıq təşkil edir. Partiyanın aşağı tessiturada olması soprano çalarlı ifaçılara müəyyən çətinlik yaradır".*

Bu illərdə İ.Nəzərovun yaradıcılıq coğrafiyası daha da genişlənir. Sənətçi Çexiyada olarkən ona Otton obrazının ifası təklif olunur. Q.F. Hendelin "Aqripina" operasından ariyalar ifa etsə də, bu obraz İlham üçün yeni idi və ifaçı bu partiyanın da öhdəsindən yüksək peşəkarlıqla gəlir.

Belə ki, 2013-cü ildə sənətçi La Monne Teatrında ilk dəfə çıxış edirdi. Bu, onunla bərabər Azərbaycan vokal ifaçılığının da uğuru idi. İ.Nəzərov Q.F.Hendelin "Aqrippina" operasından Otton obrazını canlandırırdı. Dinləyicilər azərbaycanlı musiqiçinin qüsursuz ifasını dinləyir və ustalığının şahidi olurlar. Hər bir ifaçıya tamaşaçıların "Bravo" sədaları altında hərarətlə alqışlayaraq dəfələrlə səhnəyə çağırması xoşbəxtliyi qismət olmur...

"Aqrippina" operasında ifaçının qarşısında qoyulan tələb həqiqətən mürəkkəbdir. Otton obrazı İ.Nəzərovun opera ifaçısı kimi digər bir xüsusiyyətini aşkar etməyə imkan verir. Bu, mahir səhnə təfsiridir ki, birbaşa olaraq vokal ifaçısının aktyorluq istedadı ilə sıx bağlıdır və İ.Nəzərovun ifaçılıq üslubunun əsas xüsusiyyətlərindən biridir.

Opera müğənnisinin ifasında Otton partiyası maraqlı keyfiyyətlərlə zənginləşmişdir: "*Bizim qarşımızda yeni Otton obrazı canlanır. Musiqiçinin ifasında səslənən "Vaghe fonti", "Tacero, pur che fedele" ariyaları lirik psixoloji xarakterdədir və insan qəlbinin ən incə hiss və duyğularını əks etdirir"*. Qeyd olunanlar Belçika mətbuatının Azərbaycan vokal ustası haqqında fikirlərindən kiçik bir hissədir.

Partiyanın kontralto üçün yazılmasına baxmayaraq, ifaçı obrazın öhdəsindən böyük ustalıqla gəlir. Bu nüanslar mətbuatda belə qeyd olunur: *"....Hərtərəflilik özünü səsin ahəngdar, hamar olmasında, piano dinamik çalarının böyük peşəkarlıqla səslənməsində göstərir. Sənətçinin ifasının gözəlliyi rola həm aktyorluq baxımından, həm də ifaya olunan əlavələrdə, çalarlarda özünü göstərir və bəstəkarın musiqi fikri ilə tamamilə üst-üstə düşür. O, səhnədə səsinin sehri ilə obrazın məzmununu çatdırmağa çalışır....".*

İ.Nəzərovun ifasında Otton obrazı sentimental çalarlarla zəngindir. Ancaq sənətçinin ifası nəcibliyi, koloriti ilə bərabər, ciddi və nizamlı olması ilə də seçilir. Musiqi tənqidçiləri onun yüksək ifa mədəniyyətini, artistizmini, üslub hissiyatını, səsinin ecazkarlığını vurğulayır və ifanın autentik olmasını qeyd edirlər: *"..Bu səs sanki iki dünyanı bir-birinə bağlayır"*.

İ.Nəzərov çıxışları barədə belə söyləyir: "*Mən tamaşanın son anına qədər necə həyəcanlı olmağımdan danışmaq istəmirəm. Əlbəttə, səhnə arxasında yaşanan hisslər, narahatlıq təbii və normaldır. Ancaq səhnədə duyduğum məmnuniyyət hissi mənim üçün daha qiymətlidir…*".

Sənətçinin canlandırdığı obrazları araşdırarkən, onun şəxsi arxivindəki materiallara, video görüntülərə və çoxsaylı məqalələrə müraciət etmişik. İ.Nəzərovun vokal ifaçılıq üslubunda diqqət çəkən məqamlar arasında aydın tələffüzünün olmasını mütləq vurğulamaq lazımdır. Tələffüz təkcə hər hansı sözün dəqiq deyilməsi deyil, eyni zamanda ən böyük ifadə vasitəsidir. İ.Nəzərov musiqi və söz-tələffüz vasitəsilə əsəri mükəmməl formada çatdırmağa nail olur. Bu, onun yaradıcılığında obrazın bütövlüyünə xidmət edir. Söz və musiqi ifa zamanı harmonik şəkildə bir-birinə nüfuz edərək sənətçinin əsas üslub xüsusiyyətini müəyyənləşdirir. Vokal ifaçısı üçün musiqi və söz ayrılmazdır. Onlar vəhdət təşkil edərək geniş mənada musiqi məzmununun dərindən və hərtərəfli şəkildə aşkar olunmasına xidmət edir.

Hər bir təfsir not mətninin canlandırılmasına, bəstəkar fikrinin həyata keçirilməsinə, musiqinin yeni çalarlarla zənginləşdirilməsinə, obrazın emosional və intellektual cəhətdən inikasına xidmət edir. Vokal ifaçısının səs aparatından peşəkarlıqla istifadə etmə bacarığı partiyaların ifası zamanı ona müəyyən mənada sərbəstlik verir. Bu isə əsərdə fərdi yanaşmaya səbəb olur. İ.Nəzərov səsinin bütün imkanları vasitəsilə obrazın xarakterinin ən incə detallarını, çalarlarını dinləyiciyə ötürməyə və onda tam təəssüratı yaratmağa nail olur.

Bu illərdə ifaçı Paris, London, Madrid və Romaya dəvət olunur, onun uşaqlıq arzuları həyata keçir, xəyalları gerçək olur.

Konsertlər və opera tamaşaları cərgəsinə artıq beynəlxalq əhəmiyyətli müsabiqələr də əlavə olunmağa başlayır. Belə ki, hər bir musiqiçinin həyatında müsabiqələr əhəmiyyətli rol oynayır. Onlar ifaçıdan dəmir iradə, əzmkarlıq və yüksək səviyyədə hazırlıq tələb edir ki, bu keyfiyyətlər İ.Nəzərova xas olan ən başlıca xüsusiyyətlərdir. İfaçının qatıldığı müsabiqələr bir çox janrları əhatə edir. Burada klassik musiqi müsabiqələri ilə yanaşı, telelayihələr, həmçinin estrada müsabiqələrinə də rast gəlinir. Hər

bir yarışın öz çətinlikləri vardır. Məsələn, telelayihələrdə çıxışın ikiqat məsuliyyətli olması hamıya məlumdur. Belə ki, burada ifaçı sənətini milyonlarla insana nümayiş etdirir.

İ.Nəzərovun kontratenor kimi qatıldığı ilk müsabiqəni xüsusi qeyd etmək lazımdır. "X Pezaro Beynəlxalq musiqi müsabiqəsi"ndə I yerə layiq görülməsi və "Volterranın yeni səsləri"ndə qalibiyyəti ifaçının növbəti sənət uğurlarındandır. İtaliya, İspaniya, Rusiya, Ukrayna, Yaponiya, Koreya, Türkiyə, Çin və digər ölkələrdən iştirakçıların qatıldığı müsabiqədə vokalçımız böyük uğurla çıxış edir.

Həmin ilin sentyabr ayında onu növbəti çətin sınaq gözləyirdi. Belə ki, vokal ifaçısı San-Karlo Opera Teatrında oxumalı idi. Həmin teatrda dünyaca məşhur opera ulduzlarının çıxışı onun üzərinə düşən məsuliyyəti ikiqat artırırdı.

Neapol şəhərində yerləşən San-Karlo təkcə İtaliyanın deyil, Avropanın ən qədim opera teatrlarındandır. O, məşhur La Skaladan 41 il, Venesiya Opera Teatrından isə 55 il daha qədimdir. Teatr möhtəşəm görünüşü, mükəmməl akustikası, gözəl interyerinə görə fərqlənir.

İ.Nəzərov San Karlo Teatrında çıxış etmək üçün dəvət alır. Əlbəttə, bu uğur onu daha da ruhlandırır. O, böyük həvəs və maraqla K.Orffun "Karmina Burana" kantatasından Qu quşu obrazı üzərində işləməyə başlayır. "Karmina Burana" əsərini qısa müddətə – yeddi günə öyrənərək teatrın səhnəsində oxuyur. *"Opera artisti səhnədə ifa etməklə bərabər, həm də aktyor kimi obrazı canlandırmalı, bütövlüyə can atmalıdır"* – bu, opera müğənnisinin üzərinə düşən məsuliyyəti ifadə edən çox gözəl fikirdir.

Tamaşa zamanı səhnədə vokal ifaçısının imkanları yalnız sənət biliciləri üçün aydın olur. Ancaq musiqi ifaçının ruhundan, qəlbindən süzülüb gəlirsə, onda bütün tamaşaçıları öz sehrinə salaraq onları tilsimləyir.



Vokal ustasının həmin tamaşada geyimi xüsusi diqqət çəkir. Belə ki, geyim kompüer sxemlərindən hazırlanmışdı. Dəmir elementlərin şiş ucları hərəkət edən zaman sənətçiyə toxunur və onun oxumasına müəyyən çətinliklər yaradırdı. İ.Nəzərov bu çətinliyin öhdəsindən də uğurla gəlir.

San Karlo Opera Teatrında çıxışından sonra İ.Nəzərov yenidən 39-cu "İtriya Vadisi" beynəlxalq musiqi festivalında iştirak üçün dəvət alır və burada dörd kontratenorun iştirakı ilə San Domeniko monastrında "Sərhədsiz səslər" adlı konsertdə çıxış edir.



İtaliyada təhsilin sonuncu ilində yenidən qərar vermək və həyatın növbəti istiqamətini müəyyən etmək lazım idi: ya Avropada qalmaq, ya da Vətənə geri dönmək! Bir çox nüfuzlu musiqiçilər ona Avropanın müxtəlif teatrlarında parlaq yaradıcılıq fəaliyyəti vəd etsələr də, müğənni Bakıya qayıdır.

Uğura gedən yolda İtaliyada təhsilin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Məhz İtaliya ifaçılıq məktəbi İlham Nəzərovu kontratenor kimi yetişdirdi.

Sənətçi 2013-cü ilin yayından etibarən Azərbaycana qayıdır, Bakı və dünyanın bir çox şəhərlərində konsertlərlə çıxış edir. O, pedaqoji fəaliyyət ilə bərabər, həm də Azərbaycan Dövlət Akademik Opera və Balet teatrı, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyət göstərir. Bu illərdən başlayaraq vokalçı Barokko musiqisinin təbliğatçısına çevrilir. Belə ki, paytaxtın musiqi həyatında qədim musiqi axşamları artıq ənənə halını alır. İlham Nəzərovun iştirakı ilə keçirilən konsertlərdə K.Monteverdi, İ.S.Bax, Q.F. Hendel, A.Vivaldi və digər bəstəkarların ariyaları səslənir. O, Polşanın Slovaçki Teatrında, İspaniyada "Musiqi sarayı", Dublində "Milli konsert sarayı" və digər konsert salonunlarında müxtəlif dövrün bəstəkarlarının əsərlərindən ibarət proqramla çıxış edir.

İllər bir-birini əvəz etdikcə, beynəlxalq festivallar, opera tamaşaları, konsertlər də bir-birini əvəzləyir. Belə festivallardan biri də Beynəlxalq Bax festivalıdır. Bu festival dünyanın bir çox ölkələrindən gələn musiqiçiləri birləşdirir. Moskva, Riqa və Bakıda təşkil olunan konsertlər-

də İ.Nəzərov da İ.S.Baxın əsərlərindən ariyalar ifa edir. Bakıdakı tədbir "ÜNS" Teatrında baş tutur və konsertdə Azərbaycan Respublikasının Xalq artisti, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəl-zadə, A.Qridçuk, A.Torstyanski də iştirak edirlər. "Beynəlxalq Bax" festivalından sonra müğənni Astraxan şəhərində keçirilən "XIII V.Barsova və M.Maksakova adına vokal incəsənəti" festivalına dəvət alır. O, burada da ifası ilə dinləyiciləri məftun etməyi bacarır.

2014-cü ilin yay aylarında İlham Nəzərov Q.V.Qlukun "Orfey" operasında əsas obraz olan Orfeyi canlandırmalı idi. Operada olan müxtəlif balet səhnələri, musiqi materialı onun əsərə olan marağını daha da artırır. Bir ay ərzində o, Orfey partiyasını tamamilə öyrənir. Partiyada balet artistləri ilə birlikdə çıxış edərək, obrazın daha canlı alınmasına nail olur. Bəlkə elə bu səbəbdən ifaçı tamaşanı yaradıcılığında növbəti xoşbəxt tarixi hadisə adlandırır. Onun çıxışı böyük uğurla nəticələnir.

2014-cü ildə İtaliya və Almaniyada keçirilən kontratenorların müsabiqəsinə qatılan vokal ifaçısı yarışmada ikinci yeri qazanır. Gənc ifaçının mühüm müsabiqədə böyük uğuru yaradıcılığının vacib hadisələrindən biridir. Kontratenor səsinin bir çox ifa çətinlikləri vardır. Münsiflər heyətinin İ.Nəzərovda qiymətləndirdiyi ən önəmli keyfiyyət, səsinin təbiiliyi və eyni zamanda proqramın böyük ustalıqla ifa olunması idi. Çoxsaylı ifaçı arasından azərbaycanlı vokalçının ikinci yerə layiq görülməsi təkcə onun yox, Azərbaycan vokal sənəti üçün vacib hadisə idi.

İ.Nəzərovun müvəffəqiyyətli çıxışları bir çox musiqiçilərin diqqətinə səbəb olur və o, Avropada fəaliyyətini davam etdirməsi üçün dəvətlər alır. Lakin İ.Nəzərov heç bir zaman Vətənini birdəfəlik tərk etməyi düşünmür və bir daha edilən təkliflərdən imtina edir.

Sənətçinin növbəti rol aldığı tamaşa Q.F.Hendelin "Rinaldo" operası olur. O, ilk dəfə Fransada, daha sonra İtaliyada həmin tamaşa ilə çıxış edir. İ.Nəzərovun Rinaldo obrazında debütü böyük uğurla qarşılanır. İkinci tamaşada pərdələr arası fasilə zamanı İ.Nəzərov digər opera tamaşasında çıxış etmək üçün dəvət alır və səhəri gün müqavilə imzalanır.

Rinaldo obrazı İ.Nəzərov üçün triumfa çevrilir. İfaçının lent yazıları və onun haqqında Avropa mətbuatında dərc olunan məqalələr bunu söyləməyə imkan verir. 2014-cü ildə İtaliyada "Gazzetta di Modena" adlı qəzetdə İ.Nəzərovun ifası belə qiymətləndirilir: "*...İ.Nəzərovun ifasında Rinaldo obrazını hər cəhətdən gözəl hesab etmək olar. O, virtuoz ifası ilə partiyanın bütün çətinliklərinin öhdəsindən gəlməyi və dinləyicidə sevən cəngavər obrazı təəssüratını yaratmağı müvəffəqiyyətlə bacardı. Azərbaycanlı vokalçının təfsiri yumşaq olması, yüksək ifaçılıq texnikası, musiqi cümlələrinin mütənasibliyi ilə*

*seçilir. Onun ifası ştrix və pauzanın ifadəliliyi, dinamik nüanslarla zəngindir".*

Xüsusilə, I pərdədə "Cara sposa, amante cara" və sonuncu III pərdədə "Or la tromba" ariyasında səsinin bütün diapazonda çevikliyi və geniş vokal ifaçılıq imkanları ilə dinləyicilərin böyük rəğbətini qazandı.

İ.Nəzərov tarixi qəhrəmanlıq fonunda lirik dramatik obraz yaratmağın öhdəsindən bacarıqla gəlmişdir. Ona bu obrazı ustalıqla canlandırmağa Q.F.Hendel üslubunun incəliklərinə bələd olması, obrazı dərindən duyma bacarığı kömək etdi. Sənətçinin gözünün qarşısında tarixi səhnələr canlanır və o, sanki onların canlı iştirakçısına çevrilirdi. İ.Nəzərovun canlandırdığı Rinaldo həm cəsarətli cəngavər, həm də Almirenanı bütün qəlbi ilə sevən əsl aşiqdir. Vokal ifaçısı iki cəhəti harmonik şəkildə üzvləşdirməyi bacardı. Onun yaratdığı obraz olduqca dinamik və inandırıcı idi.

Bu illərdə İlham Nəzərov yenidən Üzeyir Hacıbəyli adına Beynəlxalq musiqi festivalında iştirak üçün dəvət alır. Festival çərçivəsində o, A.Vekumniteksin dirijorluğu ilə C.Perqolezinin "Stabat mater" əsərini ifa edir. 29 sentyabrda isə İ.Nəzərov Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının səhnəsində kontratenor kimi V.A.Motsartın "Fiqaronun toyu" operasından Kerubino obrazını canlandırması ilə bir ilkə imza atır. Bu, Azərbaycan vokal sənəti tarixində, opera səhnəsində yeni bir səhifə idi. Yerli mətbuatda bu haqda belə qeyd olunur: *"Bakı tamaşaçısı üçün İlham Nəzərovun Kerubino rolunda çıxışı əsl hədiyyə oldu… Nadir kişi səsi olan kontratenoru səhnədə eşitmək teatrın tamaşaçılara bəxş etdiyi unikal hədiyyədir. Aktyorluq baxımından da İlham Nəzərov bahar nəfəsi və kövrək ürəyin həsrəti hiss olunan əsl aşiq obrazını yaratmışdır".*

*"Gənc, lakin çox perspektivə malik İlham Nəzərovun gözəl və valehedici ifasını qeyd etmək istəyirəm. Tamaşaçılar sözün əsl mənasın İlham Nəzərovun ifasına heyranlıqlaırnı gizlədə bilmədilər. Gözəl səsə malik vokal ifaçısının parlaq gələcəyi vardır".*






Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi
27
MART
2017
Barokko musiqisi axşamı
D'ACCORDO ansamblı
Bədii rəhbər
İlahə Sadıq-zadə
Elina Əliyeva (violin)
Lalə Miralayeva (violin)
Ziba Rəcəbli (viola)
Asim Xəlilov (cello)
Eyyub Əliyev (cello)
Nergiz Əliyeva (flute)
Rövşən Məmmədov (guitara)
Solistlər:
FƏRİDƏ MƏMMƏDOVA (soprano) İLHAM NƏZƏROV (contratenor)
Proqramda – A.Vivaldi, G.Hendel, L.Bokkerini, Monteverdinin əsərləri səslənəcək
Konsert saat 19:00-da Başlanır
22 ноября 19:00
Альбина ШАГИМУРАТОВА/сопрано
Аскар АБДРАЗАКОВ/бас
Жупар ГАБДУЛЛИНА/сопрано
Сабина АСАДОВА/меццо-сопрано
Ильхам НАЗАРОВ/контртенор
Рамиз УСМАНОВ/тенор
Александр КРАСНОВ/баритон
вокальная группа ПРЕМЬЕР
С участием солистов
Лариса АХМЕТОВА/сопрано
Эльвира ФАТЫХОВА/сопрано
Олеся МЕЗЕНЦЕВА/сопрано
Ильгам ВАЛИЕВ/тенор
Владимир ОРФЕЕВ/тенор
Ян ЛЕЙШЕ/баритон
Артур КАИПКУЛОВ/бас
Дирижёры:
Артём МАКАРОВ Федерико САНТИ
ГАЛА-КОНЦЕРТ
АЙДА НА ОПЕРУ!
Международный фестиваль И.С. БАХА
Сезон 2014/15
Иоганн Себастьян Бах
Лютневая и вокальная музыка
Эдоардо КАТЕМАРИО гитара
В концерте принимают участие:
Наталия АРХИПОВА сопрано
Ильгам НАЗАРОВ контратенор
Начало концерта в 19.00
Справки по телефону (495) 629 93 90
QAFQAZ İSLAM ORDUSUNA VƏFA KONSERTİ
MART 2017
QƏDİM
XURŞİD
ERO1, GUERRIERI
ACCADEMIA
CEMBALO
June 2016
TECHNOLOGY
ART
MUSIC
FVTVRISMO
ORA
LAMBORGHINI SHOWROOM
OPERA
SOLİSTLƏR:
Milli.Az
Day.Az



VENERDÌ 1 GIUGNO 21.15 ATRIO COMU
EROI, GUERRIERI, IMPER
SOUND WAVES
Baku EtnoConcerts
Italian and Azerbaijani Music C
БОЛЬШОЙ ТЕАТР БЕЛАРУСИ
VIII
МИНСКИЙ МЕЖДУНАРОДНЫЙ ОПЕРНЫЙ ФОРУМ
MINSK INTERNATIONAL OPERA FORUM
22 ДЕКАБРЯ/DECEMBER/19.00
ГАЛА-КОНЦЕРТ
ЗВЁЗД МИРОВОЙ ОПЕРЫ
Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi
Qədim musiqi axşamı
Azərbaycan Respublikasının əməkdar artisti
Xurşid Abdullayeva (klavesin)
İlham Nəzərov (kontratenor)
Proqramda İ.S.Bax və G.Hendelin əsərləri
18. TÜRKSOY Opera Günl
Sa. 19.00 Uhr
23.09.17
ROBERT-SCHUMANN-SAAL
DÜSSELDORF
Tribute Concert zum
75. Geburtstag von
MUSLIM MAGOMAEV
"THE SOVIET SINATRA"
INTERPRETEN:
KASPISCHE VIRTUOS
trend
TICKET
19:00
Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri
TEYMUR GÖYÇAYEV
Müsabiqələr Laureatı
Azərbaycan Dövlət
NƏZƏROV ilə
MUSİQİSİ AXŞAMI
İştirak edir
Rəhimova (soprano)
Müşayiət edir
Kərimova
25 İYUN 2016
TÜRK DÜNYASININ İNCƏSƏNƏT USTALARININ KONSERTİ
TÜRKSOY-un Xalq Çalğı Alətləri Orkestri
KULT
Lietuv
LMTA SIMFO
at 19:00
XOCA
soyqırım
Xocalı şəhid
International Turkic Culture and Heritage Foundation
esittelee
Dede Gorgud'n ja Baletteatterin musiikkiteatterin kamariorkesteri
tar-solistoja Orkhan Zeynalov'in konssa esittävät
Turkkilaisen maailman helmiä
Solistina Ilham Nazarov
Kapellimestarina professori Yalchin Adigozalov
5.6 klo 19.00 Kulttuuritalo Virta, Karelia-sali
Maksuton sisäänpääsy
Azərbaycan Milli İncəsənət Muzeyi
13 noyabr 2018-ci il
Ü.Hacıbəyli adına
Bakı Musiqi Akademiyası
ORCHESTRA
Solistlər:
Magda İbrahimova
İlham Nəzərov
Rövşən Əmrah
7 June 20
MUSICAL PERFORMANCE



AWARD
BEST INTERPRETER 2019
BEST F.SCHUBERT INTERPRETATION
Schwanengesang D.957
Ilham Nazarov
DIPLOMA
Best Countertenor of the World
GƏNCƏ ŞƏHƏR İCRA HAKİ
Bakı Musiqi Akademiyası
ZAMAN
congra
HAM NAZA
winning 3rd prize in the
egory voice soloist sen
ДИПЛОМ
III дәрежелі
VOICE OF ASTANA
«Voice of Astana» халықаралық эстрада орындаушыларының конкурсында 3-орын алған
Ilkham Nazarov
марапатталады.
Awarded for taking the 3rd place in the «Voice of Astana» International contest of pop singers.
Accademia del belcanto "Rodolfo Celletti" Martina Franca - Italy
2012
Docenti
Stefania Bonfadelli
Fabio Ceresa
Paolo Coni
Mariella Devia
Antonio Greco
Sherman Lowe
Roberta Mameli
Ettore Papadia
Alessandro Patalini
Sonia Prina
Vincenzo Rana
Vittorio Terranova
Vincenzo De Vivo
ATTESTATO DI PARTECIPAZIONE
all'Accademia del Belcanto "Rodolfo Celletti" Anno Accademico 2012
rilasciato a
ILHAM NAZAROV
Martina Franca, 18 Novembre 2012
Il Presidente Prof. Francesco Punzi
Il Direttore Artistico Alberto Triola
CERTIFICATE OF PARTICIPATION
This is to certify that
Ilham Nazarov
Participated with merit in the Caspian Jazz and Blues Festival workshops May 12 to 17th 2003, Baku, Azerbaijan
за Ваше профессиональное мастерство, педагогический талант и компетентность при подготовке к участию в VI Международном конкурсе-фестивале «ВЕСЕННЯЯ ПЕРЕЗВОНЬ».
Желаем Вам новых открытий и побед, ярких событий, творческой энергии на пути реализации всех намеченных планов!


"My Friends are My Tre
Dear İlham Naz
10° Concorso
Internazionale Musicale "Città di P
DIPLOM
AZƏRBAYCAN RESPUBLİK
GƏNCLƏR VƏ İDMAN
NAZİRLİYİ
ONAL C
E VINE
ngratulates
Фонд культурно-музыкального наследия Муслима Магомаева
IV Международный конкурс вокалистов имени М. Магомаева
Крокус Сити Холл, Москва, 2016
ДИПЛОМ
1 премия – Золотая медаль и звание Лауреата
IV Международного конкурса вокалистов имени М.Магомаева
ПРИСУЖДАЕТСЯ
Назарову Ильхаму
(Nazarov Ilham)
(Азербайджан)
на основании решения Конкурсного Жюри
от 23 октября 2016 г.
Председатель Жюри:
Члены Жюри:
Т.И. Синявская
Л.А. Долина
Ф.Ш. Бадалбейли
Д.А. Бертман
В. Де Вико
Ф. Фарина
Х. Фрай
"FLORIDA KEYS" INTERNATIONAL MUSIC COMPETITION FOR YOUNG TALENTS
IN HONOR OF THE GREAT AZERBAIJANI COMPOSER JEVDET HAJIYEV
November 17, 2018, USA
DIPLOMA
Grand Prize
IS PRESENTED TO
Ilham Nazarov
In Solo Vocal
Tohfa Eminova
Pervin Muradova -Dilbasi
Kay Liang
РОДНИКИ ДУШИ
ГРА
Назаров Ил
За активное участи
XIII Республиканск
лучшее исполнен
народной и
песни и танц
"РОДНИКИ ДУ
проходящего в год Л.
посвященного
В.И. СОЛОВЬЕВА-СЕД
МУСЛИМА М
INTERNATIONAL
VOCAL COACH MUSIC
COMPETITION
DIPLOMA
FIRST PRIZE WINNER
ILHAM NAZAROV
Azerbaijan
Honorary
НАГРАЖДАЕТСЯ
Ильхам
НАЗАРОВ
МИНСК 2017



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi
27 MART
19:00
HƏSRƏTƏ SON
Frans Şubert
QU QUŞUNUN NƏĞMƏSİ
DÜNYA PREMYERASI
İLHAM NƏZƏROV
Ünvan: 28 May küçəsi, 17
Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi
KAMERA VƏ ORQAN MUSİQİSİ ZALI
İLHAM NƏZƏROVUN
"Avanti nel passato"
Solo konserti
D'Accordo ansamb
Bədii rəhbər
18
Sadıq-zada
(soprano)
Asim Xəlilov (cello),
Nərgiz Əliyeva
Andrey Sabayev
AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI
KAMERA VƏ ORQAN MUSİQİ ZALI
Beynəlxalq Müsabiqələr Laureatı
"ÜNS Yaradıcılıq Səhnəsi",
Azərbaycan Dövlət
Akademik Opera və Balet Teatrının solisti
İLHAM NƏZƏROV ilə
BAROKKO MUSİQİSİ AXŞAMI
İştirak edir
Kristina Rəhimova (soprano)
Müşayiət edir
Dilarə Kərimova
Proqramda G.Händel, W.A. Mozart,
G.Pergolesinin əsərləri səslənəcək
Üzeyir Hacıbəyliyə
həsr olunmuş
III Beynəlxalq
Musiqi Festivalı
"Gəncliyin Səsi" adlı layihə çərçivəsində
İlham Nəzərovun solo konserti
Dilarə Kərimova
Vokal axşamı
İLHAM NƏZƏROVUN solo konsertinə dəvət edirik
Sevda Məmmədova (müəllim)
Dilarə Kərimova (fortepiano)
Kristina Rəhimova (vokal)
Proqramda qərb, rus, və Azərbaycan bəstəkarlarının əsərləri səslənəcək
29 may
Auditorium della
Fondazione Paolo Grassi
Lunedì 20 luglio 2015
ore 19:00
Ilham Nazarov
(controtenore)
Liubov Gromoglasova
(pianoforte)
In programma musiche di Bach, Haendel, Pergolesi, Mozart, Gluck, Schubert, Strauss e musiche popolari dell' Azerbaijan
İştirak edir
Kristina Rəhimova (soprano)
Müşayiət edir
Dilarə Kərimova
Händel, W.A. Mozart, A. Vival
əsərləri səslənəcək
İLHAM NƏZƏROV




MUSİQİ DÜNYASI
4/81
2019
Azərbaycanda ilk elmi-pedaqoji, tənqidi-publisistik, mədəni-maarifçi beynəlxalq jurnalı




QOBUSTAN
www.ayb.az


Azərbaycan Respublikası Təhsil Nazirliyi
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
TÜRKSOYLU XALQLARIN MUSİQİ MƏDƏNİYYƏTİNİN TƏDQİQİ PROBLEMLƏRİ


Mədəniyyət.AZ
Azərbaycan Respublikası
Noyabr – Dekabr (316) 2017
31 DEKABR –
DÜNYA AZƏRBAYCANLILARININ
HƏMRƏYLİYİ GÜNÜ


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ
AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY
ISSN 2664-407X
MUSİQİ ELMİ, MƏDƏNİYYƏTİ VƏ TƏHSİLİNİN AKTUAL PROBLEMLƏRİ
АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ МУЗЫКАЛЬНОЙ НАУКИ, КУЛЬТУРЫ И ОБРАЗОВАНИЯ
ACTUAL PROBLEMS OF THE SCIENCE, CULTURE AND EDUCATION OF MUSIC
2019
№ 2 (7)


ИСКУССТВО
ГЛАЗАМИ
МОЛОДЫХ
Материалы
XI Международной научной конференции
28-29 марта 2019 г.


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN
XXII RESPUBLİKA ELMİ KONFRANSININ
MATERİALLARI
II CİLD


Mədəniyyət.AZ
Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi


Музыка
Music & Time
и время
2/2020
ISSN: 2072-9960


2019-2 (44)
Konservatoriya
Elmi jurnal


QOBUSTAN

***

Musiqiçinin yaradıcılığında 2015-ci ilin ən parlaq mədəniyyət hadisəsi Ravenna musiqi festivalı idi...

İ.Nəzərovun səhnə fəaliyyəti üçün bu il yaradıcılıq nöqteyi-nəzərindən olduqca məhsuldar idi. İspaniya, Fransa, Almaniya, Böyük Britaniya və qardaş Türkiyədəki müxtəlif festivallarda çıxışları onun zəngin yaradıcılıq fəaliyyətinin bir hissəsini təşkil edir. İsveçin Stokholm şəhərində "Barokko Musiqi Festivalı", Almaniyanın Essen şəhərində "Barokko səsləri", Danimarkada "Beynəlxalq Barokko musiqisi günləri" kimi konsert və festivallarda iştirakı vokal ifaçısının yaradıcılığını bir qədər də zənginləşdirir.



İ.Nəzərov 41-ci dəfə keçirilən "İtriya vadisi festivalı"nda solo konsertlə çıxış edir. Konsert 18 iyul tarixində Martina Franka şəhərində yerləşən San Domeniko kilsəsində baş tutur. Konsert günü İlham Nəzərov elə oradaca Ravenna musiqi festivalına dəvət alır.

Bu, dünyanın ən mötəbər musiqi festivallarındandır. İtaliyanın Ravenna şəhərində keçirilən musiqi festivalında iştirak etmək bir çox musiqiçinin arzusudur. K.Mazzavillani Muti tərəfindən 1990-cı ildə təşkil olunan festival bir çox janrları özündə cəmləşdirir. Festivalda opera, kamera simfonik musiqi, etnik musiqi, caz, balet və digər janrlarda dünya şöhrətli musiqiçilər çıxış edirlər.

İ.Nəzərov Ravenna musiqi festivalında çıxışını belə xatırlayır: *"Mən dünyanın ən böyük və prestijli musiqi festivalı olan "Ravenna"da çıxış etmək üçün aldığım dəvətdən danışmaq istəyirəm. Bu festivala əfsanəvi Rikkardo Muti dirijorluq edir. Həmin festivalda iştirak hər bir musiqiçinin arzusudur. Akademiyada təhsil aldığım vaxt Rikkardo Mutinin həyat yoldaşı bizi dinlədi, ifadan sonra isə məni "Maestro" adlandırdı, "Maestro" tərcümədə "müəllim" mənasını verir. İfam Muti ailəsinin xoşuna gəldiyi üçün onlar hətta üç il sonra da məni unutmadılar".*

Maestro Rikkardo Muti İ.Nəzərovdan klassik ariyalarla yanaşı, Azərbaycan xalq musiqisini ifa etməsini rica edir: "*Onlar məndən Azərbaycan xalq musiqisini ifa etməyimi istədilər. İlk əvvəl mən hansı mahnını təqdim edəcəyimi bilmədim"*. Müğənni ən qədim xalq mahnılarımızdan olan "Sarı gəlin" mahnısı ifa etməyi qərara alır.

İ.Nəzərovun İtaliyada "Sarı gəlin"i ifa etməsi italyan tamaşaçılarının böyük marağına səbəb olur. Xüsusilə, mahnının sözlərinin ifaçı tərəfindən italyan dilinə tərcümə edilməsi tamaşaçının daha aydın şəkildə anlamasına yardımçı olur:

*Pallida sposa*
*Oh quanto sei bella, tu che mi hai disciolto l'anima.*
*Lasciami respirare ancora. Pallida sposa mia.*
*L'amore che provo mi trascina altrove.*
*Guardo la strada che abbiamo percorso insieme.*
*Ma adesso non ci sei.*
*Grido, senti la mia anima abbandonata?*
*Non ci sei, mi hai lasciato per sempre.*

İ.Nəzərovun festivalda "Sarı gəlin" xalq mahnısını səsləndirməsi təsadüfi xarakter daşımır. O, daim Vətənimizin musiqi mədəniyyətini təbliğ etmək məqsədi ilə çalışır. İtalyan mətbuatında "Ravenna" festivalı haqqında dərc olunan məqalədə Azərbaycan musiqisinin qədim köklərə və zəngin ənənələrə malik olması qeyd edilir və festivalın bir gecədə Şərqlə Qərbi birləşdirən körpü rolunu oynaması vurğulanır .

Yerli mətbuatda da ifaçımızın uğurları yüksək qiymətləndirilərək, onun yaradıcılığının milli musiqi mədəniyyətimizin təbliğində mühüm rol oynadığını qeyd edilir:*"Opera müğənnisi vaxtilə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində keçirilən muğam dərslərinin və xalq musiqisi nümunələrinin onun ifasının rəngarəngliyinə səbəb olmasını vurğulayır.Sənətçinin "Sarı gəlin" xalq mahnısında istifadə etdiyi Bayatı-Şiraz muğamından çalarlar dünya şöhrətli musiqiçilər tərəfindən böyük maraqla qarşılanmışdır"*.

Həmin il İ.Nəzərov İtaliyada K.Monteverdinin "Pompeyin taxta çıxması" operasından Arnalta obrazını canlandırır. Bu, ifaçının oynadığı ilk qadın obrazlarından biridir. İfaçı obrazdan danışarkən məşqlər zamanı partiyanın vokal ifaçılıq baxımından rahatlığını, lakin obraz təcəssümündən narazı qaldığını deyir. Bu zaman o, ətrafda həmin obrazın prototipini müşahidələrlə müəyyən edir və beləliklə, rolun həm də aktyorluq baxımından mükəmməl icrasına nail olur.

İlham Nəzərov böyük ruh yüksəkliyi ilə Vətənə qayıdır.

İfaçı bu illərdə P.Çaykovskinin "Qaratoxmaq qadın" operasından Prilepa obrazına müraciət edir. Belə ki, o, 2016-cı ilin 12 mart tarixində Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının səhnəsində həmin obrazla çıxış edir. Bu mədəniyyət hadisəsini teatrımızın tarixində yenilik kimi qiymətləndirmək olar. Böyük səhnə təcrübəsinə malik müğənni həmin partiyanın ifası ilə bir daha ustalığını göstərmiş olur.

Prilepa obrazından sonra İ.Nəzərov A.Vivaldinin "Custin" operasından Anastaziyo, Q.F.Hendelin "Alçina" operasından Rucciyero obrazlarını da repertuarına daxil edir. Sənətkar həmin operalarla hələ İtaliyada təhsil illərindən tanış idi.

İlham Nəzərov təkcə Avropada deyil, Rusiyanın müxtəlif şəhərlərində təşkil olunan beynəlxalq musiqi festivallarının fəal iştirakçısıdır. Başqırdıstan Muxtar Respublikasının paytaxtı Ufa şəhərində keçirilən "Avropanın ürəyi" adlı beynəlxalq musiqi festivalı janr rəngarəngliyinə görə fərqlənir. Belə ki, festivalda simfonik musiqi ilə yanaşı, etnik və estrada musiqisinə yer verilirdi. Ufa amfiteatrında keçirilən konsertlərdə ümumilikdə 55 minə yaxın tamaşaçı iştirak etmişdir. Festivalın sonuncu günündə təşkil olunan Qala konserti İ.Nəzərov və Qazaxıstan Opera Teatrının solisti Jupar Qabdullina açmışdır.

Başqırdıstan və yerli mətbuat İ.Nəzərovun səsinin unikallığını və ifaçılıq ustalığının yüksək səviyyədə olmasını vurğulayır.

Sənətçi mükəmməl ifası ilə daim bəstəkarların diqqətini cəlb etmişdir. Hələ İtaliyada təhsil aldığı illərdə İ.Nəzərov üçün əsərlər bəstələnirdi. Burada ilk öncə 2016-cı ildə "XVI Perqolezi Spontini festivalı"nın açılış mərasimində səsləndirilən "Il volo dell'Aquila" kantatasını qeyd etmək istərdik. Festivalın təntənəli açılışı sentyabr ayına təsadüf etmişdir. II Frederik meydanında "Il volo dell'aquila" adlı tamaşa rejissor Franko Draqone tərəfindən həyata keçirilirdi. Qeyd edək ki, əsərin müəllifi Fabrisiyo Festa şəxsən İ.Nəzərovun səsinin xüsusiyyətlərini nəzərdə tutaraq həmin partiyanı bəstələmişdir.

Bir qədər haşiyədən kənara çıxaraq qeyd etmək labüddür ki, "Il volo dell'Aquila" kantatası İ.Nəzərov üçün bəstələnən yeganə əsər deyildir. Sənətkarın vokal ifaçılıq imkanlarını nəzərə alaraq azərbaycanlı və Avropalı bəstəkarlar da əsərlər bəstələmişlər. Onlardan R.Qədimovanın H.Cavidin sözlərinə "İnsan", "Bilmirəm" fortepiano və səs üçün yazılmış vokal əsərlərini, K.Əlizadənin kontratenor və simfonik orkestr üçün "Ah, məmləkətim mənim", S.Muskaritolonun "Lakin sevgini görmək olmur" (klassik və Azərbaycan xalq çalğı alətləri orkestri və kontratenor üçün)

və bas-kontratenor və elektron musiqi alətləri üçün "Ay, şəhvət və sürət" adlı əsərlərini göstərmək olar. Adlarını qeyd etdiyimiz əsərlər müxtəlif illərdə bəstələnmiş və müğənni tərəfindən səsləndirilmişdir.

Həmin il İ.Nəzərovun yaradıcılığında bir çox hadisələrlə yadda qaldı. Burada təkcə M.Maqomayev adına Vokalçıların IV Beynəlxalq Müsabiqəsini qeyd etmək kifayətdir. Müsabiqədə İ.Nəzərov I yerə layiq görülərək böyük uğura imza atmışdır.

Onun peşəkar vokal ifaçısı kimi formalaşmasında M.Maqomayev sənəti böyük rol oynamışdır. İ.Nəzərov uşaqlıq illərindən görkəmli müğənninin yaradıcılığına müraciət edir, onun mahnılarını oxuyurdu. Sanki M.Maqomayev şəxsiyyəti onu bütün sənət yolu ərzində müşayiət edir. Bəstəkarın "Azərbaycan" əsəri İ.Nəzərovun peşəkar səhnə fəaliyyətində konsertlərin bəzəyinə çevrilir. Təbii olaraq, çox sevdiyi sənətkarın şərəfinə təşkil edilən beynəlxalq müsabiqədə iştirak musiqiçi üçün böyük məna kəsb edirdi. İ.Nəzərov müsabiqədə iştirak üçün sənəd qəbulunun yalnız son günü xəbər tutur. Buna baxmayaraq o, ümidini itirmir, sənədləri və lent yazısını müsabiqə təşkilatçılarına göndərməyə müvəffəq olur. Tezliklə ifaçıya müsabiqənin ilk dinləyiş-seçim turundan uğurla keçdiyi və iştirak üçün dəvət olunduğu xəbəri verilir.



İ.Nəzərov M.Maqomayev haqqında fikirlərini bölüşür: *"Müslüm Maqomayev – Azərbaycanın dahi vokal ustası və bəstəkardır. Onun mahnıları dinlənilir, oxunur və sevilir. Mən həmişə öz görkəmli həmyerlimin istedadına heyran olmuşam və heyran olmaqda da davam edirəm.*

*Yaradıcılıq fəaliyyətimə məhz M.Maqomayev sayəsində başlamışam. Mənim iştirakımla olan konsertlərin demək olar hər birində "Azərbaycan" əsəri səslənir. Təsəvvür edin ki, bir il ərzində yüzlərlə konsertdə həmin mahnını ifa etmişəm. Böyük səhnəyə ilk addımlarımı M.Maqomayev və onun gözəl repertuarı sayəsində atmışam. Müslüm Maqomayev təkcə vokal ifaçısı kimi deyil, həm də bir şəxsiyyət kimi mənim üçün dəyərlidir!*

*Müslüm Maqomayev adına Vokalçıların IV Beynəlxalq müsabiqəsində*

*mənə nəsib olan qalibiyyət peşəkar yaradıcılığımda böyük nailiyyətdir. Həmin müsabiqədən sonra mən Azərbaycan Respublikasının Əməkdar artisti adına layiq görülmüşəm. Milyonların sevimlisi olan ustad sənətkarın adı mənim ürəyimə əbədi həkk olunub, ona bütün həyatım boyu minnətdaram!".*

İlham Nəzərovun taleyinə həmin müsabiqədə qalib olmaq nəsib olmuşdu. O, müsabiqədə kontratenor kimi iştirak edən və qalib gələn ilk iştirakçıdır.

İ.Nəzərovun müsabiqədə çıxışını SSRİ Xalq artisti, professor F.Bədəlbəyli yüksək qiymətləndirərək aşağıdakıları qeyd edir: ".. *Nadir səs tembrinə malik İlham Nəzərov həm dinləyiciləri, həm də münsifləri valeh etdi, o, elə ifa etdi ki, münsiflər heyrətlərini gizlədə bilmədilər. "Accademia D'Arte Lirica"nın rəhbəri Vinçenzo de Vivo, italyalı müğənni Franko Farina, Avstriyada LİVA təşkilatının bədii rəhbəri və quruluşçu rejissor Hans-İoahim Fray, SSRİ Xalq artisti Tamara Sinyavskaya və digərləri azərbaycanlı ifaçıların vokal hazırlığına və istedadına heyran qaldılar".*

İ.Nəzərovun peşəkar səhnə fəaliyyəti növbəti illərdə də zənginləşir. O, Drezden, Lion, Linz, Malmö, Valensiya və digər şəhərlərdə keçirilən beynəlxalq festivallarda iştirak edərək Azərbaycan vokal ifaçılıq məktəbini yüksək səviyyədə təmsil edir. "Beynəlxalq opera günləri", "Valensiya kamera musiqisi festivalı", "Barokko musiqisi festivalı" və onlarla digər tədbirlərdə çıxışı onun zəngin sənət fəaliyyətinin yalnız kiçik bir hissəsini təşkil edir.

İlham Nəzərovun opera səhnəsində yaradıcılığı A.Vivaldinin "Orlando Furioso", Q.F.Hendelin "Yuli Sezar Misirdə" əsərləri, Şpion, Ariodante obrazları ilə bir qədər də kamilləşir.

Həmin ilin noyabrında Azərbaycan Dövlət Filarmoniyasının Kamera və Orqan Musiqisi zalında baş tutan D'Accordo ansamblı ilə "Avanti nell passato" adlı dördüncü solo konserti ifaçının növbəti müvəffəqiyyətidir.

Artıq on ilə yaxındır ki, vokal ustası yay aylarını Avropada teatr tamaşalarında, opera festivallarında keçirir. O, dincəlmək bilmədən çalışır, repertuarını zənginləşdirir və yeni obrazlarla dinləyicilərini sevindirir.

Vokal ifaçısının yaratdığı digər uğurlu obraz Ariodantedir. Sənətçi obrazda müxtəlif ifadə vasitələrindən yararlanmaqla ifasını zənginləşdirir. Bu texniki passajlar və bəzəklərdə özünü göstərir. "Dopo notte, atra e funesta" ariyasında çətin passajların bir çox vokal ifaçılardan fərqli olaraq leqato ifası diqqəti cəlb edən məqamdır. İ.Nəzərovun təfsirində Barokko vokal musiqisinin ayrılmaz hissəsi olan bəzəklər ustalıqla – dəqiq və sər-

bəst səslənərək sanki uçuş təəssüratı yaratmış olur.

Sənətçi həm də müxtəlif televiziya lahiyələlərində özünü sınamışdır. Ümumiyyətlə, telelayihələrlər yeni yaranmış müsabiqə növü kimi qəbul olunur. Əsas məqsəd televiziya vasitəsilə istedadlı ifaçıları dünyaya tanıtmaqdan ibarətdir. Qeyd edək ki, bu, İ.Nəzərovun yaradıcılığında "Böyük opera" "O səs Türkiyə"dən sonra ikinci telelayihədir. Türkiyədəki yarışmada ifaçı estrada janrında çıxış edirdisə, "Böyük opera" telelayihəsində klassik janr əsas istiqamət sayılır. Burada Moskvada keçirilən və sınaq turlarına qatılan yüzlərlə vokalçı arasından 10 vokal ifaçısı müsabiqəyə vəsiqə qazanır. Bu amillər müsabiqənin nüfuzunu və iştirakçıların mübarizə əzmini xeyli yüksəldir.

Rusiyalı sənətsevərlər İ.Nəzərovu həmin telelayihədən əvvəl də yaxından tanıyırdılar. Onun 2018-ci ilin yanvar ayında Moskva Konservatoriyasının P.Çaykovski adına konsert zalında çıxışı Rusiya musiqisevərlər tərəfindən böyük rəğbətlə qarşılanmışdı. Xüsusilə, İ.Nəzərovun hər iki səslə çıxış etməsi dinləyicilərin diqqətinə və marağına səbəb olmuşdu. Konsertin dirijoru dünya şöhrətli Vladimir Fedoseyev idi. Rusiyalı musiqi tənqidçiləri müğənninin çıxışı haqqında aşağıdakıları qeyd edirdilər: *"Dünyanın ən yaxşı üç kontratenorlarından biri olan İlham Nəzərov konsertdə bir çox ariyalarla bərabər, hazırladığı növbəti sürprizi qonaqlara ərməğan etdi. Hər iki səsdə ustalıqla ifa etmə bacarığı İ.Nəzərova dinləyicilərin sevgisini qazanmağa imkan verir".*

Həmin ildə sənətçi Qazaxıstanın Astana şəhərində keçirilən "Astananın səsi" adlı estrada müsabiqəsinin seçim turlarında uğurla iştirak edir və 500-dən artıq musiqiçi arasından seçilərək müsabiqəyə vəsiqə alır. Gərgin keçən müsabiqədə ifaçı üçüncü yerə layiq görülür.



İ.Nəzərovun yaradıcılığında növbəti əlamətdar hadisə onun dünyaca məşhur britaniyalı müğənni, aktrisa, iki dəfə "Britaniya mükafatı" və "Qremmi" mükafatçısı Cozelin İv Stokerlə (səhnə adı Coss Stoundur) "Sarı gəlin"i ifa etməsi olur. Coss Stounun ifaları dünya

hitləri arasındadır, onun albom satışı dünyada on milyonlarla ölçülür. O, İ.Nəzərovun vokal ifaçılıq istedadını xüsusi vurğulayaraq, bu səsin dinləyiciləri başqa bir aləmə apardığını qeyd edir. Həmçinin İ.Nəzərov milyonlarla izləyicisi olan britaniyalı ifaçı vasitəsilə "Sarı gəlin" xalq mahnısını bir daha geniş dinləyici auditoriyasının nəzərinə çatdırmağa müvəffəq olur.

***

İlham Nəzərov geniş fəaliyyət sferasına malik musiqiçidir. O, 2018-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantura pilləsinə qəbul olunur və elmi tədqiqatlarla məşğul olmağa başlayır. Araşdırma mövzusu isə, M.Maqomayevin həyat və yaradıcılığı ilə bağlıdır. İ.Nəzərovun görkəmli vokal ustasının yaradıcılığına olan dərin məhəbbət və ehtiramı onu M.Maqomayev yaradıcılığı haqqında elmi tədqiqatlar aparmağa sövq edir. Uşaqlıqdan sanki onu müşayiət edən M. Maqomayev sənətini həm də elmi nöqteyi-nəzərdən araşdırmağa, təhlil etməyə başlayır. Bəlkə də bu, korifey sənətkarın onun həyatında oynadığı rol üçün mənəvi təşəkkürdür…İ.Nəzərov görkəmli ifaçının fəaliyyətinin araşdırılması istiqamətində apardığı işlərlə simpozium və konfranslarda çıxış edir, məqalə və məruzələri müxtəlif beynəlxalq jurnallarda dərc olunur.

Sənətçi elmi fəaliyyəti ilə yanaşı, səhnə yaradıcılığını da əsla unutmur. Yenə də Barokko musiqisi inciləri musiqiçinin ifasında dinləyicilərin qəlbinə yol tapır və o, bir çox opera tamaşalarında iştirak edir. İ.Nəzərovun R.Sadırxanovun "Səyyah Sindbad" adlı Azərbaycanın ilk rok operasında çıxışı böyük maraqla qarşılanır. Xarici səfərlərdən Bilkənd Universitetində K.Orffun "Karmina Burana" əsərinin ifasını, Finladiyanın paytaxtı Helsinkidə "Türk dünyasının inciləri" adlı konserti, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar tədbiri, Rusiyanın Sankt-Peterburq şəhərində “Gümüş lira” festivalını və onlarla digərlərini göstərmək olar.

Bu illərdə vokal ustasının opera səhnə repertuarına Q.F.Hendelin "Eçio" operasından Valentiniano və "Tezey" operasından Arkane obrazı da əlavə olunur.

2019-cu ildə İlham Nəzərovun yaradıcılıq sferası bir qədər də genişlənir. Belə ki, ifaçı özünü bəstəkar kimi sınayaraq, keçirilən festivallarda böyük müvəffəqiyyətlə iştirak edir. Qeyd edək ki, musiqiçi iki əsərin müəllifidir:

*"Beni hor görme!"*
*"Ey, təbib!"*

Ümumiyyətlə, musiqiçidə bəstəkarlıq qabiliyyəti uşaqlıq illərinə təsadüf edir. O, hələ Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsil alarkən fortepiano arxasında melodiyaları ifa etməyə çalışar və hətta sözlər belə əlavə edərdi. Bu kiçik yaradıcılıq təcrübələri illər ötdükcə onun fəaliyyətinin əsas ifadə vasitəsinə çevrilir. İ.Nəzərovun ifasında istənilən əsər təkrarçılıq prinsipindən uzaqdır və bir əsərin eyni şəkildə ifasına rast gəlmək mümkün deyil. Azərbaycan xalq mahnılarını ifa edərkən sənətçidə improvizə istedadı özünü aydın şəkildə büruzə verir. Məhz improvizə etmək, verilmiş melodiyanı zənginləşdirmək xüsusiyyətindən irəli gələrək, hər hansı sadə melodiyanın İ.Nəzərovun ifasında kamil sənət nümunəsinə çevrildiyini əminliklə söyləmək olar.

İfaçının ilk bəstəsi "Beni hor görmə!" əsəridir. Bu əsərin kiçik yaranma tarixçəsi var. Belə ki, TÜRKSOY-un təşkilatçılığı ilə keçirilən "Aşıq Veysəlin anma ili" çərçivəsində festival təşkil edilir və öncə İ.Nəzərova hər hansı bir bəstəkarın mahnısını oxumaqla iştirak təklif olunur. Lakin sənətçi əsərlərdən narazı olduğu üçün özü bəstələməyi qərara alır və əsər festivalda ən yaxşı nümunələrdən biri kimi mükafata layiq görülür. Bir qədər haşiyədən kənara çıxaraq həmin əsərin başqa xüsusiyyətlərinə diqqət yetirmək maraqlı olardı.



"Beni hor görme!" mahnısında Aşıq Veysəl Şatıroğlunun "Kardeşim" şeirinin sözlərindən istifadə edilmişdir. Aşıq Veysəlin yaradıcılığı sadə və rəvan dili ilə bərabər, həm də zəngin və əhatəli mövzu dairəsinə malikdir. "Kardeşim" şeirinin mövzusu insanlıq və bərabərlik, bir insanın digərindən üstün olmamasıdır. Aşağıda həmin şeirin mahnıda istifadə olunmuş misralarını təqdim edirik.:

*Beni hor görme kardeşim,*
*Sen altınsın ben tunç muyum?*
*Aynı varlık her bedende,*
*Ne var ise sende bende,*
*Aynı vardan var olmuşuz*

*Sen gümüşsün ben saç mıyım?*
*Yarın mezara girende,*
*Sen toksun da, ben aç mıyım?*

İ.Nəzərovun musiqisində əsərin məzmun dairəsi daha da genişləndirilir. "Beni hor görme!" mahnısında mistik əhval-ruhiyyənin olması, özünəməxsus musiqi dili, fortepiano və xor partiyası burada olan təzadlılıq və bənzətməni başqa bir müstəviyə qaldırmış, məzmun baxımından daha da zənginləşdirmişdir. Həmçinin vokal partiyasının mürəkkəbliyi də xüsusi olaraq vurğulanmalıdır. Mahnıda həm bariton, həm də kontratenor səsindən istifadə olunur ki, bu da ifaçının vokal ustası kimi imkanları və peşəkarlığını ön plana çıxardır. Əsərdə müğənnidən yüksək aktyorluq qabiliyyəti də tələb olunur.

Mahnı ilk dəfə 2019-cu ildə Aşıq Veysəl Şatıroğlunun anadan olmasının 125 illiyi münasibəti ilə təşkil edilən tədbirdə müəllif tərəfindən səsləndirilmişdir. Həmin konsertin musiqiçinin yaradıcılığında əlamətdar hadisə kimi xüsusi yeri vardır. Çünki İ.Nəzərov burada ilk dəfə olaraq həm ifaçı, həm də bəstəkar kimi iştirak etmişdir. O, mahnısını türkmənistanlı pianoçu Rüstəm Rəhmətovun müşayiəti ilə Türkiyənin Ankara, Sivas və Bayburt şəhərlərində keçirilən konsertlərdə ifa etmişdir.

İ.Nəzərov müəllifi olduğu Nəsiminin sözlərinə bəstələdiyi "Ey, təbib" mahnısında da öz üslub xüsusiyyətlərini qoruyub saxlamaqla yanaşı, vokal partiyasında həm kontratenor, həm də bariton səs tembrindən istifadə etmişdir. Burada söz və musiqi həmahənglik təşkil edərək əsərin bədii konsepsiyasını daha da zənginləşdirilməsinə xidmət edir.

Bəzən deyirlər ki, musiqiçi həyatı tamaşalarda, konsertlərdə, səhnədə keçən bir ömürdür. Bəli, İ.Nəzərovun yaradıcılığı bunu tam əminliklə deməyə bizə əsas verir. Onun bu illərdə də dolğun konsert və səhnə fəaliyyəti həm də Azərbaycan vokal ifaçılıq məktəbinin zənginləşməsinə xidmət edir. Azərbaycanda keçirilən irimiqyaslı tədbirlərdə İlham Nəzərov fəal iştirak edir. Onun ifasında musiqi inciləri yeni təfsirçisini tapmaqla yanaşı, həm də zövqləri oxşayır. İfaçının "Qədim musiqi axşamı" adlı klavesinlə müşayiət olunan konsertləri, "Şərqlə Qərbin körpüsündə" adlı musiqi festivalında iştirakı, Almaniyada A.Vivaldinin "Bəyazit" operasında Tamerlan, K.Monteverdinin "Orfey" tamaşasında Speranza obrazı, Ufa şəhərində keçirilən "Operaya doğru" adlı musiqi festivalında Rusiyanın Marinski teatrının solisti A.Abdrazakovun dəvəti ilə iştirakı, XI Ü.Hacıbəyli festivalı və İtaliyanın Novarro şəhərində Koççə opera teatrında "Opera live cooking" adlı tamaşada iştirakı, 2020-ci ildə

TÜRKSOY-un dəvəti ilə türk dünyasının görkəmli şairi A.Kunanbayevin "Səs etməz qara könlüm" mahnısının ilk dəfə olaraq kontratenor səsi ilə ifası yeni yaradıcılıq uğuru kimi qiymətləndirilə bilər.

Musiqiçinin yaradıcılığında ən böyük nailiyyətlərdən biri də onun professional lent yazılarının olmasıdır. İ.Nəzərov "İnspiration" adlı ilk CD albomunda F.Şubertin "Qu quşunun nəğməsi" adlı vokal silsiləsinə müraciət etmişdir. Qeyd edək ki, məcmuə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində fəaliyyət göstərən səsyazma studiyasında lentə alınmışdır. Albomda səsləndirilən məcmuə kontratenorun ifasında ilkdir. Albom Fransada keçirilən beynəlxalq müsabiqədə ilin ən yaxşı təfsiri nominasiyasında qalib gəlmişdir. Fransadakı qələbə ifaçıya Parisdə iki müxtəlif solo konsert vermək imkanını qazandırmışdır. Təbii ki, əldə edilən uğurlar təkcə İ.Nəzərovun deyil, bütövlüklə Azərbaycan vokal ifaçılıq sənətinin qələbəsidir!



G.ŞAROYEV ADINA 35 SAYLI 11 İLLİK MUSİQİ MƏKTƏBİ
Azərbaycan Respublikasının Əməkdar artisti
Beynəlxalq Müsabiqələr Laureatı
İLHAM NƏZƏROVUN
SİNİF KONSERTİ
28 Dekabr
Saat 12:00
ZƏHRA NƏSİBOVA
CAVİDAN BABAZADƏ
RƏNA CƏFƏRZADƏ
MƏRYƏM BABAYEVA
Konsertmeyster: NƏRİMAN ƏMİRASLANOV
"Günümüzün
Beynəlxalq və Respublika
Məmmədzadə Fatimə (piano)
Şükufə Əlizadə (piano)
Sevinc Ağayeva (piano)
Bəhram Mürsəliyev (tar)
Cəmalə Abdinzadə (piano)
Ümidə Fətəliyeva (soprano)
Kamilla İmanova (soprano)
Orxan İbrahimov (klarnet)
Aysel Əlixanlı (bəstəkar)
Günel Binnətli (soprano)
Zərrin Zeynalova (piano)
Nağızadə Fidan (piano)
Fatimə Əliyeva (piano)
"Gənclərə
"Sevg
həsr olunmu
Beynəlxalq və Respubli
Pərvanə Şükürova (fleyta)
Orxan İbrahimov (klarnet)
Teymur Hanifəyev (piano)
Dünya İsmayılova (qanun)
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
DEVELOPING UNION OF GEORGIAN FOLKLORE AND CLASSICAL MUSIC "HARMONIA"
THE III INTERNATIONAL COMPETITION
"World Harmony"
DIPLOMA
Is awarded to the best teacher
Ilham Nazarov
for participation in the competition
PRODUSERS:
Ts. Bichikashvili
BAXIŞ
Səsdə min səda...
Müəllimin müvəffəqiyyətli yaradıcılıq
olunun tələbə və şagirdlərdə əksi
Əli bəy Hüseynzadə haqqında
ilk fundamental bibliografiya işıq üzü görüb
15 YANVAR
"Gənclərə dəstək" layihəsi təqdim edir
Vokal
Musiqisi
Axşamı
MUSİQİ ZALI
İştirak edirlər:
Azərbaycan Respublikasının Əməkdar Artisti
İlham Nəzərov
Beynəlxalq və Respublika müsabiqələr laureatları
Kamran Rzayev
Cəlal Kərimov
Orxan Cəlilov
Mahir Tağızadə
Solmaz Balaei
İslamə Abdullayeva
Nigar Cəlilova
Kamilla İmanova
Dilarə Kərimova
Müşayiət edirlər:
Nərgiz Əliyeva
Proqramda – Azərbaycan, rus və qərbi-avropa bəstəkarlarının əsərləri səslənəcək
"Gənclərə dəstək" layihəsi təqdim
"Səyin sədaları" adlı konsert
Çıxış edirlər:
Müəllim: İlham Nəzərov
Konsertmeyster sinfi
İfaçılar
Həsənli Samirə
Kərimova Süsən
Vəliyeva Fatimə
Vokal: Binnətli Günel
Vokal: Muxtarova Gülüstan
Vokal: Odinayeva İlmira
Müəllim: Nazarov İlham
Simli alətlər ansamblı
Axund Tamara
Cümşüdlü Aişə
Day.Az




# Tanınmış vokalçının pedaqoji fəaliyyəti

**Əməkdar artist, Prezident təqaüdçüsü, tanınmış vokal- ... (kontratenor), beynəlxalq ...biqələr laureatı İlham ...rov məzunu olduğu ...yir Hacıbəyli adına Ba- ... Musiqi Akademiyasında müəllim kimi fəaliyyətə başlayıb.**



İlham Nəzərov bundan öncə Bülbül adına Orta ixtisas musiqi məktəbində və G.Şaroyev adına 35 saylı 11 illik Musiqi məktəbində çalışaraq gənc vokalçıların yetişdirilməsinə öz töhfəsini verib.

O, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2010-2013-cü illərdə ... da təhsil alıb. 2010-cu i... liya, Fransa, Almaniya...

Avstriyada keçirilən ... vokal müsabiqəl... olub. İlham Nə... 2016-cı ildə ... lən Vokalçıl... mayev ad... müsabiq... Nyu-Yo... müəl... biq...






# İlham Nəzərovun pedaqoji fəaliyyəti

İncə psixoloq... Bu ifadə İlham Nəzərovun pedaqoji fəaliyyətinin bütün istiqamətlərini dərinliyi ilə göstərir.

Müəllim peşəsi olduqca mürəkkəb struktura malikdir. Bu mürəkkəblik ilk növbədə onun obyektinin canlı insan olması, predmetinin isə onların təhsili, tərbiyəsi və bir şəxsiyyət kimi formalaşdırılmasıdır ki, bu da müəllimin məsuliyyətini dəfələrlə artırır. Hər bir şəxs pedaqoq ola bilməz. Çünki müəllimdə ilk növbədə müəyyən şəxsi keyfiyyətlərin olması mütləqdir. Bunlardan da ən başlıcası biliyi qarşıdakı tərəfə öyrətmək və ya paylaşmaq qabiliyyətidir ki, bu keyfiyyət də hər bir peşə sahibinə aid deyil.

Vokal ifaçılığı sahəsində də müəllimin metodiki iş prinsipi şagirdlərin inkişafında böyük rol oynayır. İ.Nəzərovun pedaqoji prinsiplərinin ümumi istiqamətlərinin bir qayda olaraq italyan oxuma məktəbinin ənənələrinə əsaslandığını qeyd edə bilərik. Əsas cəhət bədii məzmun və texniki imkanların uzlaşması ilə hər hansı bir nəticəyə nail olmaqdır. Qeyd edək ki, ifaçı həm klassik, həm də estrada vokal ifaçılığını tədris edir.

İ.Nəzərov 2008-ci ildən Şuşa Musiqi Kollecində pedaqoji fəaliyyətə başlamışdır. 2013-cü ildən G.Şaroyev adına 35 nömrəli 11 illik musiqi məktəbində, 2014-cü ildən A.Zeynallı adına Musiqi Kolleci və Bülbül adına Orta İxtisas Musiqi Məktəbində dərs demişdir. 2018-ci ildən isə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında "Solo oxuma və opera hazırlığı" fakültəsində pedaqoji fəaliyyətinə başlaması pedaqoji yaradıcılığının yeni dövrüdür.

2018-ci ildə ABŞ-da keçirilən vokal müəllimlərinin müsabiqəsində birinci yerə layiq görülməsi İ.Nəzərovun pedaqoji fəaliyyətində əhəmiyyətli rol oynamışdır.

İstedadlı və savadlı vokal ifaçıları yetişdirmək İ.Nəzərov fəaliyyətinin əsas tələbidir. Onun pedaqoji prinsiplərinə əsasən vokal ifaçılıq sənəti müəyyən keyfiyyətlər məcmusudur. Burada yalnız səsin gözəlliyi, texniki imkanları yetərli deyildir. İfaçı hərtərəfli istedada sahib olmalıdır və ya onu özündə inkişaf etdirməlidir. Hərtərəfli bacarıq dedikdə, düz-

gün və savadlı şəkildə ifa ilə bərabər, dil bilikləri, məntiqi yanaşma, səhnə plastikası, səmimiyyət, cəsarətli və inandırıcı ifa əsas şərt kimi nəzərdə tutulur. Sənətkar hər bir tələbəsinə böyük potensiallı vokal ifaçısı kimi yanaşaraq, onları daim yüksəklərdə görür və mükəmməl ifaçı olmaları üçün qarşılarında bir sıra tələblər qoyur.

İ.Nəzərov münsif kimi respublikamızda və ondan kənarda təşkil olunan beynəlxalq müsabiqələrə dəvət edilir. Onlardan 2017-ci ildə Vokal və estrada ifası üzrə respublika müsabiqəsi, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən müsabiqəni, Avstriyada "Beynəlxalq vokal müsabiqəsi", Bülbülün anadan olmasının 120 illik yubileyinə həsr olunmuş milli musiqi alətləri ifaçıları, xanəndələr və vokal ifaçılarının III müsabiqəsini, 2018-ci ildə Fransada "Beynəlxalq Barokko səsləri müsabiqəsi", 2019-cu ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının opera studiyasında keçirilən "Korea Pop Beynəlxalq Estrada Müsabiqəsi", 2020-ci ildə "Harmoniya dünyası" beynəlxalq müsabiqəsini və digərlərini qeyd etmək olar.

İlham Nəzərov səmərəli pedaqoji fəaliyyətinə görə dəfələrlə diplomlarla mükafatlandırılıb.

Müəllimin zəhmətinin nəticəsi – tələbələridir. Onun şagirdləri təhsillərini Azərbaycanın müxtəlif ali təhsil ocaqlarında müvəffəqiyyətlə davam etdirirlər. Onların bir sıra beynəlxalq müsabiqələrdə uğurla çıxışları və mükafatlara layiq görülməsi İ.Nəzərovun pedaqoji fəaliyyətinin əsas nailiyyətidir. 2019-cu ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının II kurs tələbəsi E.İsmayılovun "Testene Bakı İncəsənəti" adlı beynəlxaq müsabiqədə II yerə layiq görülməsi, Bakı şəhər G.Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbinin şagirdi C.Babazadənin "Xəzər küləyi" müsabiqəsində uğuru, 2020-ci ildə "Harmoniya dünyası" beynəlxalq müsabiqəsində I yerə layiq görülməsi, R.İbişovun həmin müsabiqədə II yeri qazanması, S.Rüstəmovun 2017-ci ildə III dərəcəli diplomla təltif olunması, 2020-ci ildə "Harmoniya dünyası" adlı beynəlxalq müsabiqədə I yeri qazanması və digərlərini sadalamaq olar. Həmçinin Beynəlxalq müsabiqələr laureatı İslamə Abdullayeva da İlham Nəzərovun pedaqoji fəaliyyətinin uğurudur. Gənc ifaçının hələ 35 saylı G.Şaroyev adına 11 illik musiqi məktəbində təhsil alarkən ifa etdiyi solo konsertlərdə, beynəlxalq müsabiqələrdə uğurlu çıxışları pedaqoji hazırlığının yüksək səviyyədə olduğunun göstəricisidir.

Artıq İ.Abdullayeva təhsilini Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında SSRİ Xalq artisti Fidan Qasımovanın sinfində davam etdirir. Onun müxtəlif illərdə təşkil olunan konsertlərinin müvəffəqiyyətli olma-

sında İ.Nəzərovun da böyük əməyi vardır. İ.Nəzərovun gənc ifaçı ilə eyni səhnəni bölüşməsi ona olan dəstəyin ən bariz nümunəsidir.

İ.Nəzərovun sinif konsertləri onun pedaqoji fəaliyyətində bir ənənədir. Konsertlər bir qayda olaraq M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi zalında və ya musiqi məktəblərində həyata keçirilir. Həmçinin onun tələbə və şagirdləri ayrı-ayrılıqda müxtəlif festivalların daimi iştirakçılarıdırlar. Bu, musiqiçinin vokal ifaçılıq məktəbinin müvəffəqiyyəti ilə bərabər, onun ifaçılıq ənənələrinin gələcək nəslə ötürülməsidir.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tarixində kontratenor ifaçılığını ilk dəfə İ.Nəzərov tədris etmişdir. İlk tələbə isə Tofiq Zeynalovdur. O, birinci kursa tenor kimi daxil olsa da, ikinci kursdan İ.Nəzərovun sinfində kontratenor kimi təhsil alır.

İ.Nəzərov pedaqoji fəaliyyətlə həm praktiki və həm də nəzəri şəkildə məşğul olur. Musiqiçi iki metodik tövsiyənin müəllifidir. Onlardan 2015-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyətşünaslıq üzrə elmi metodik mərkəzinin nəşr etdirdiyi "Uşaq musiqi və incəsənət məktəbləri üçün proqram" (vokal ifaçılığı üzrə) və 2019-cu ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasınında estrada ifaçılığı fakültəsində bakalavr pilləsində təhsil alan tələbələr üçün "Estrada sənəti" üzrə proqramdır.

İ.Nəzərovun pedaqoji fəaliyyəti də ifaçılığı kimi geniş və çox şaxəlidir. O, özündə bir çox keyfiyyətləri birləşdirir. Müəllimin bu gün gördüyü işlər gələcəkdə öz bəhrəsini verəcəkdir. İ.Nəzərov Azərbaycan vokal ifaçılıq məktəbinin gələcəyi üçün çalışır. Gənc musiqiçilərə düzgün ifa mədəniyyətini öyrətməklə, savadlı vokal ifaçıları nəsli hazırlayır. Gələcək nəslin etibarlı əllərdə olduğu şübhəsizdir.

# İlham Nəzərovun səsinin bəzi xüsusiyyətləri

İ.Nəzərovun səsini araşdıran zaman diapazon xüsusiyyətlərini də qeyd etmək lazımdır. Vokal ifaçısının səsinin diapazonu 5 oktava həcmindədir:




Yuxarıda verilmiş cədvəldə qırmızı rənglə bariton, yaşıl rənglə kontratenor, sarı rənglə isə baritondan kontratenora keçid hissə göstərilmişdir. Keçid hissə əsasən 4 səsdə özünü göstərir v kiçik və birinci oktava arasında yerləşir- a - b -$c^1$-$d^1$. Məhz bu an ifaçılıq aparatının vəziyyətinin dəyişilməsi baş verir.



Səs büküşlərinin uzunluğu ifaçının bas bariton və ya tenor olduğunu müəyyən etməyə yardımçı olur. İfaçılarda səs büküşlərinin uzunluğu əsasən aşağıdakı kimi qiymətləndirilir.

Aşağı, yəni bəm səsə malik kişilərdə səs büküşləri uzun, tenorlarda isə qısadır.

Bu bir tərəfdən musiqi alətlərinin hazırlanması prinsipinə oxşayır, yəni ölçüdən asılı olaraq səs hasil olur. Bu zaman musiqi alətinin siminin uzunluğu və qalınlığı da yaddan çıxmamalıdır. Belə ki, ən böyük musiqi aləti bəm (və ya ən uzun ölçüyə malik simə), ən kiçik isə (və ya ən qısa ölçülü simə) zil səsə malik olur. Kişilərdə səs büküşlərinin uzunluğu 18 -25 mm arasında dəyişir.

| Səsin növü | Soprano | Metso-soprano | Tenor | Bariton | Bas |
|---|---|---|---|---|---|
| Səs büküşlərinin uzunluğu (mm) | 14.0-19,0 | 18.0-21.0 | 18.0-22.0 | 22.0-24.0 | 24.0-25.0 |
| Səs büküşlərinin Eni (mm) | 2.0-3.0 | 2.5-3.0 | 2.5-3.0 | 3.0-4.0 | 3.0-5.0 |

İ.Nəzərovun səsinin xüsusiyyətləri tibbi nöqteyi-nəzərdən də araşdırma mövzusu olmuşdur. Belə ki, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Otorinolarinqologiya kafedrasının nəzdində fəaliyyət göstərən Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant dəstəyi ilə qurulmuş “Səs laboratoriyası” kafedrasının dosenti və laboratoriyanın rəhbəri, t.e.ü.f.d. Ramil Həşimli və "Medistyle" klinikasının baş radioloqu Ayaz Hidayətov tərəfindən 19 iyul 2019-cu ildə ifaçının səs büküşlərinin klinik vəziyyətinin müəyyən edilməsi üçün kompyüter tomoqrafiyası həyata keçirilmişdir. Müayinənin nəticələrini təqdim edirik:







Biz səs büküşlərinin uzunluğunun İ.Nəzərovun səsinə təsir etməsi faktını qeyd etdik.

Verilmiş fotoda İ.Nəzərovun səs büküşlərini diqqətinizə çatdırırıq. Fotodan da göründüyü kimi, burada onların uzunluğu 20,8 mm, eni isə 6 mm təşkil edir. Ifaçının səs büküşlərinin uzunluğu metso-soprano, eni isə basa daha yaxındır. Bu səbəbdən ifaçı geniş diapazonda ifa etmək imkanına malikdir.

# Dünya şöhrətli musiqiçilərin İlham Nəzərov haqqında fikirləri

## Barokko ustası



2016-cı ildə Moskvada keçirilən Müslüm Maqomayev adına Vokalçıların Beynəlxalq müsabiqəsində İlham Nəzərov böyük uğurla çıxış edərək Azərbaycanı yüksək səviyyədə təmsil etmişdir. Qeyd edim ki, ifaçımızın Barokko üslubunda peşəkarlıqla oxuması təəccüb və maraqla qarşılandı. Zəngin ənənələrə malik Azərbaycan vokal ifaçılıq məktəbinin nümayəndəsi kimi İ.Nəzərov öz timsalında azərbaycanlıların Barokko dövründən başlayaraq müasir estrada əsərlərinə qədər böyük peşəkarlıqla oxuya bilməsini bir daha təsdiq etmiş oldu. Dünya şöhrətli musiqiçilər Vinçenzo de Vivo və böyük ustad Tamara Sinyavskaya da onun istedadını yüksək qiymətləndirdilər. İ.Nəzərov müsabiqədə ən parlaq vokal ifaçılarından biri kimi tarixə düşdü.

İlham Nəzərov Azərbaycanda Barokko üslubunun mahir ifaçısı və ən parlaq təbliğatçısıdır. Buna görə mən ona dərin minnətdarlığımı bildirirəm. Əvvəllər Azərbaycanda bu dövrün musiqisi belə demək olarsa "qapalı" idi, onu ifa etmək üçün xüsusi ifaçılıq biliklərinə malik ifaçılar tələb olunurdu. İlhamda isə bu dövrə məxsus səslə bərabər istedad da vardır.


Fərhad BƏDƏLBƏYLİ,

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti, professor*

## Müsabiqənin seçilən səsi



Mən İlham Nəzərovu ilk dəfə 2016-cı ildə M.Maqomayev adına Vokal ifaçılarının IV Beynəlxalq Müsabiqəsi üçün təşkil olunan ilkin dinləyiş mərhələsində eşitmişəm.

Klassik repertuarda o, Q.F.Hendel və A.Vivaldinin ariyalarını təqdim edirdi. Çox gözəl və nadir səsə malik vokal ifaçısı kimi İlham əsərləri elə böyük ustalıq və səmimiyyətlə ifa etdi ki, sanki o, birbaşa kosmosa "bağlanmışdı".

Amma mənim, o cümlədən, digər münsiflər heyəti və dinləyicilər üçün daha böyük sürpriz – müsabiqənin estrada hissəsində İlhamın bariton repertuarını ifa etməsi oldu. Onun bariton səsini də mükəmməl, məharətlə idarə etməsi qeyri-adi hadisədir!

Əlbəttə, İlham Nəzərov unikal səsə malikdir və ən əsası, o, Musiqi oxuyur!

M.Maqomayev adına Vokal ifaçılarının IV Beynəlxalq müsabiqəsində azərbaycanlı opera müğənnisi İlham Nəzərovun qalib olması olduqca xoşdur.

Tamara SİNYAVSKAYA,<br>
*Böyük Teatrın solisti,*<br>
*M.Maqomayev adına Vokal ifaçılarının*<br>
*Beynəlxalq müsabiqəsinin münsif heyətinin sədri,*<br>
*SSRİ Xalq artisti, professor*

## Tələbəlikdən müəllimliyə...



İlham Nəzərov – bu, mənim üçün yeni ad deyil. Çünki uzun illərdir ki, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Solo oxuma və opera hazırlığı" kafedrasına rəhbərlik edirəm və onun adını hələ tələbə ikən eşitmişəm. Tələbə vaxtından diqqətimizi cəlb edən İlham Nəzərov artıq bu gün Əməkdar artist fəxri adını daşıyır. O, hər zaman sənət axtarışındadır.

İ.Nəzərovun Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, daha sonra İtaliyada, Ozimo İncəsənət Akademiyasında təhsil alması, beynəlxalq müsabiqələrdə yüksək səviyyəli çıxışları onu peşəkar vokal ifaçısı kimi bir daha təsdiq etmişdir.

İlham Nəzərov orijinal ifaçıdır. O, həm bariton, həm də kontratenor səsi ilə məharətlə çıxış edir. Onun ifaçılıq üslubu çox gözəldir. Bu, Azərbaycan musiqi mədəniyyəti üçün böyük yenilikdir.

İ.Nəzərov bizim kafedrada pedaqoji fəaliyyətə məşğuldur. Mən əminəm ki, o, ixtisaslı kadrların yetişməsində böyük rol oynayacaqdır.

Xuraman QASIMOVA,
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının*
*"Solo oxuma və opera hazırlığı" kafedrasının müdiri,*
*Xalq artisti, professor*

## Nadir istedada malik tələbəm..



İlham Nəzərovla Ozimo İncəsənət Akademiyasında tanış olmuşam. O, mənə kontratenor kimi Barokko bəstəkarlarının əsərlərini ifa etmək istəyinin olduğunu söylədi.

Biz Perqolezi, Hendel və Baxın əsərlərini çox diqqətlə öyrənməyə və hər bir müəllifə xas ifadə və üslub üzərində işləməyə başladıq.

İlham çox həssas musiqiçidir. O, sürətlə irəliləyərək, böyük uğurlara imza atdı. Təhsilə başlayandan cəmi bir neçə ay sonra, o, özünün vokal imkanları və texniki ustalığından xəbərdar oldu.

Yeni səsi və repertuarı ilə İlham dinləmələrdə və yarışlarda iştirak edərək müvəffəqiyyətlər qazandı. Martina Franka şəhərində səhnələşdirilən Rossinin "Orfey" əsəri, Otrantoda Maestro R.Muti ilə konsert, Müslüm Maqomayev adına Vokalçıların Beynəlxalq müsabiqəsində birinci yeri qazanması onun yaradıcılıq nailiyyətlərindəndir.

İlham Barokko və müasir dövrün bəstəkarlarına eyni həssaslıqla yanaşır. Onlardan Napoli San-Karlo teatrında Karmina Burana, Brnoda B.Brittenin "Yay gecəsində yuxu", Fabrisiyo Festanın Yezi şəhərində keçirilən "Perqolezi Spontini festivalı"nda onun səsi üçün yazdığı "İl volo dell" Aquila" əsərlərini və onlarla digərlərini qeyd edə bilərik.

İlham səmimi və maraqlı insandır, öyrənməyə can atır. O, daim detallara diqqət yetirir, ifası ilə dinləyicilərə orijinal hiss və duyğuları bəxş edir. O, qədim musiqi nümunələrini müasir dövrümüzdə səsləndirən, müəllif və dinləyici arasında körpü rolunu oynayan sənətkardır.

Vinçenzo De VİVO,
*Neapol şəhəri San Karlo Teatrının bədii rəhbəri,*
*Ozimo İncəsənət Akademiyasının professoru,*

## Falsetin mahir ifaçısı



Gənc kontratenor İlham Nəzərov məni vokal imkanlarının genişliyi ilə heyran etdi. Onun səsi bir çox kontratenor ifaçılarından fərqli olaraq təbiidir. İlham geniş diapazona, nadir çeviklik qabiliyyətinə, registrlər boyu hamar və zəngin çalarlara malik vokal ifaçısıdır.

Raina KABAİVANSKA,
*Dünyanın aparıcı teatrlarının solisti, soprano, professor*

## Piano dinamik çalarının mahir ifaçısı



İlham Nəzərov gözəl səs və incə musiqi zövqünə malik vokalçıdır. Onun mükəmməl musiqi cümlələri və gözəl leqato ifa etməsi mahir ifaçı olmasından xəbər verir. Musiqiçinin ifası zamanı müxtəlif dinamik çalarlardan, xüsusilə pianodan məharətlə istifadə etmək bacarığı vardır. İ.Nəzərovun vokal biliklərinin, imkanlarının genişliyi ona rahatlıqla istənilən çətinliyin öhdəsindən gəlməyə imkan verir. Əlbəttə, bu onun peşəkarlığını və ustalığını göstərir.

Bruno PRATİKO,
*Metropolitan, Kovend Qarden, La Skala,*
*Vyana opera teatrlarının solisti, bas-bariton*

## Unikum...



İlham Nəzərov unikal səsin sahibidir. Belə desək unikum... Biz onu ilk öncə bariton kimi tanımışıq. Mən heç vaxt "Notre Dame de Pari" müziklini unutmayacam. O, həmin müzikldə Kvazimodo rolunu canlandıraraq çox gözəl obraz yaratmışdır.

İ.Nəzərov yüksək artistlik qabiliyyətinə malikdir. Yəni Tanrı ona təkcə səs deyil, o cümlədən, görünüş, müxtəlif obrazlarla qısa zaman çərçivəsində dəyişilmək məharəti vermişdir. İ.Nəzərov çevikliyi, səhnə görünüşü, çox böyük imkanlara malik səsi ilə birlikdə obrazın bütünlüyünə tamamilə nail olur. O, bizim musiqi mədəniyyətimiz üçün bir tapıntıdır.

2010-cu ildə D.Bertmanın H.Əliyev adına Sarayda səhnələşdirdiyi "İntizar" operasında İ.Nəzərov Yad adam obrazını çox gözəl canlandırmışdı. Hazırda da İ.Nəzərov Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bu obrazı canlandırır. Mən onun həm ifaçılıq, həm də aktyor məharətindən çox məmnunam.

Firəngiz ƏLİZADƏ,
*Azərbaycan Bəstəkarlar İttifaqının sədri,*
*AMEA-nın müxbir üzvü ,*
*Azərbaycan Respublikasının Xalq artisti,*
*Əməkdar incəsənət xadimi,*
*professor*

## "Yad adam"



Azərbaycanlı ifaçı İlham Nəzərovla tanışlığımız maraqlı alındı. Mən Bakıda Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin "İntizar" operasını səhnələşdirən zaman ifaçılar arasında hələ heç kimə tanış olmayan gözəl bariton diqqətimi çəkdi. Onu əsas rola götürdüm. Sonralar peşəkarlığının daha da artırılması məqsədilə İ.Nəzərov Ozimo İncəsənət Akademiyasına daxil oldu və İtaliyada onda kontratenor səsini kəşf etdilər. İndi budur, təcrübə yığaraq və canlandırdığı rolun ən incə detallarına qədər varmağı öyrəndikdən sonra o, "Böyük opera" telelayihəsində yenə mənim qarşımdadır. Taleyin təəccüblü dönüşləri vardır...

Dmitri BERTMAN,
*Rusiya Federasiyasının Xalq artisti,*
*"Helikon" opera teatrının rəhbəri*

## Xor Kapellasının artisti



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru olaraq mən, İlham İslam oğlu Nəzərovu gözəl vokal keyfiyyətləri olan yaradıcı bir şəxs kimi Azərbaycan Dövlət Xor Kapellasına artist vəzifəsinə qəbul etmişəm. Kapella çox ağır, janr xüsusiyyətləri etibarı ilə çətin bir sahədir.

Sənətçinin səsinin yüksək və peşəkar səviyyəyə çatmasına səbəb onun dayanmadan əzmlə çalışması, öyrənməsi olmuşdur. Gənc olmasına baxmayaraq, İ.Nəzərovun bir çox xarici ölkələrin böyük səhnələrində fəxredici alqışlara layiq çıxışlarının şahidi olmuşam.

